www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 fevral 2016-cı il Çərşənbə axşamı № 36 (6357) Qiyməti 60 qəpik

**Xəbər**

## «ASAN Xidmət»in adından dələduzluq edən şəxslər tutuldu

yazısı səh.2-də

**Gündəm**

### Prezidentin Qarabağ çağırışının arxasındakı mətləblər



Ekspertlərdən dəyərləndirmə və ilginc açıqlamalar; "Dağlıq Qarabağda başlanacaq müharibə Avropa İttifaqının sərhədində gedəcək"...

yazısı səh.13-də

### Mərkəzi Bank uçot dərəcəsini qaldırdı - növbəti devalvasiyaya qarşı addım?!

yazısı səh.10-da

### Prezidentin ardıcıl Avropa səfərlərinin sirri

yazısı səh.4-də

### Binəqədinin icra başçısı Qarabağ veteranını küçələrdə qoyub

yazısı səh.12-də

### Bacısını bıçaqlayan qardaş: "Bir neçə dəfə başa saldım, mənə qulaq asmadı"

yazısı səh.14-də

### İngiltərə "çirkli pullarla" mülk alan əcnəbilərə qarşı

yazısı səh.4-də

### Tanınmış erməni politoloqu erməniləri aşağıladı

yazısı səh.9-da

### Ölkənin qeyri-neft sektoru necə ilə dirçələ bilər?

yazısı səh.6-da

### Qarşıdakı 15 il Rusiya iqtisadiyyatı üçün durğunluq dövrü olacaq

yazısı səh.9-da

### Dollar krediti olanlara daha bir bəd xəbər

yazısı səh.10-da

### Azərbaycanın postneft dövrünə qəfil başlamasının pərdəarxası

yazısı səh.12-də

**Nazir özü haqqında gəzən şayiələrə "Yeni Müsavat"da aydınlıq gətirdi**

# "BU, MƏNİM DÜŞMƏNLƏRİMİN İŞİDİR" - ƏBÜLFƏS QARAYEVLƏ ÖZƏL MÜSAHİBƏ

Mədəniyyət və turizm naziri "Şahdağ" Turizm Kompleksində restoran bağlatması haqda yayılmış informasiyaları təkzib etdi; o, ciddi ipucları və mesajlar verdi; "Kiməsə "yox" deyirsən, kiminsə istədiyini eləmirsən, bununla da düşmənlərin əmələ gəlir"




yazısı səh.5-də

## Əhməd Davudoğlu Kiyevdə Azərbaycana Rusiya təhlükəsindən danışdı - şok xəbərdarlıq

Ərdoğanın Bakı səfəri öncəsi Ankaradan Kremlə ağır ittiham; **qardaş ölkənin baş naziri:** "Rusiya Gürcüstanın, Ukraynanın və Suriyanın ərazi bütövlüyünü pozub, indi də Azərbaycanın ərazi bütövlüyü təhlükədədir"...

yazısı səh.8-də



*Azay Quliyev:*

### "İctimai şuralar mərkəzi və yerli icra hakimiyyətlərindən kənarda yaradılmalıdır"

yazısı səh.6-da



Rasim Salmanov

### "Bizim market"in rəhbərinə növbəti sərt ittihamlar

yazısı səh.3-də



### ABŞ Dövlət Departamenti Nulandla bağlı şübhəyə aydınlıq gətirmədi

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016




# Avropa çempionatının finalı Azərbaycanda olacaq - sərəncam

**Prezident İlham Əliyev 17 yaşınadək futbolçular arasında futbol üzrə Avropa çempionatının final mərhələsinin 2016-cı ildə Azərbaycan Respublikasında keçirilməsinin təmin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda bildirilir ki, Azərbaycan Respublikasında idmanın inkişafı daim dövlətin diqqət mərkəzindədir. Azərbaycanda beynəlxalq səviyyəli mötəbər idman yarışları, o cümlədən dünya və Avropa çempionatları keçirilir, həmin yarışlarda Azərbaycan idmançıları uğurla iştirak edirlər. 17 yaşınadək futbolçular arasında futbol üzrə Avropa çempionatının final mərhələsinin 2016-cı ildə Azərbaycan Respublikasında keçirilməsi ölkədə idmanın bu növünə marağın daha da artmasına səbəb olacaq və Azərbaycanın nüfuzlu beynəlxalq idman tədbirlərinə ev sahibliyi etmək təcrübəsini daha da zənginləşdirəcəkdir.

Sərəncamdan irəli gələn məsələləri həll etmək müvafiq nazirliklərə və Nazirlər Kabinetinə tapşırılıb.

# Əlil-arestantın işinə Ali Məhkəmədə baxacaqlar

**Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifov əlil-arestant Rauf Sultanovun kasasiya şikayətini icraata qəbul edib. R.Sultanova 20 gün müddətində şikayətdəki müəyyən çatışmazlıqların aradan qaldırılması üçün vaxt verilib. Bu haqda "Yeni Müsavat"a açıqlama verən R.Sultanov deyib ki, artıq həmin çatışmazlıqlar aradan qaldırılıb:**

"Şikayəti yenidən Ali Məhkəməyə göndərmişəm. Mənim qanunsuz olaraq məhkum olunmağıma imzamın saxtalaşdırılması yol açıb. Bakı Apelyasiya Məhkəməsi bu faktın üzərindən sükutla keçib. Bu məsələ araşdırılmasa, mənim şərləndiyim üzə çıxa bilməz. Məni dələduzluqda ittiham ediblər. İş üzrə isə zərərçəkənlər yoxdur. İşi Xəzər Rayon Məhkəməsində hakim Samir Mayılova göndərdilər. Fevralın 17-də iş üzrə növbəti proses keçiriləcək. Cinayət işinin materiallarındakı həmin saxtakarlığa görə mən bu gün də həbsdəyəm. Həmin saxtakarlığı təsdiqləyən ekspertiza rəyi də var. Bu məsələyə baxılmalı və hüquqi qiymət verilməlidir. Barəmdəki cinayət təqibi xitam olunmalı, bəraət hökmü çıxarılmalıdır. Mənə qarşı şikayət və tələb yoxdur".

**R.Sultanov eyni zamanda ev dustaqlığına buraxılması üçün prezidentə müraciət edib:** "Hakim Samir Mayılovun sədrliyi ilə barəmdə olan cinayət işinə təkrar olaraq 3-cü dəfə baxılır. Cinayət işi üzrə 18 sentyabr 2015-də hakim Tərlan Əkbərov barəmdə 5 il azadlıqdan məhrum etmə haqda hökm çıxarıb. Apelyasiya şikayətim üzrə 23 noyabr 2015-ci il tarixdə hakim Vüqar Məmmədovun sədrliyi ilə keçirilən ilkin məhkəmə baxışında həmin qanunsuz hökm ləğv olundu. İş Xəzər məhkəməsinə göndərildi. Mənə qarşı dələduzluq ittihamı sürülüb. Amma işdə zərərçəkən, tələb irəli sürən bir kəs yoxdur".

R.Sultanov eyni zamanda Ali Məhkəmədə şikayətinə baxıldığı müddətdə barəsindəki həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsi haqda vəsatəti də hakim Samir Mayılova yollayıb. O, ölkə başçısı İlham Əliyevdə, xanımı Mehriban Əliyevaya da müraciət etməklə barəsindəki həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsini xahiş edir.

❑ **E.MƏMMƏDƏLİYEV**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Prezidentin yeni mesajları: "Azərbaycan üçün neftdən sonrakı dövr artıq başlanıb"

**"Azərbaycanın enerji sektoruna xarici neft şirkətlərinin cəlb olunması müstəqilliyin gücləndirilməsi və gələcək uğurlu inkişafın təmin edilməsi məqsədi daşımışdır".**



Bu fikirlər Prezident İlham Əliyevə məxsus twitter hesabında (@azpresident) paylaşılıb.

Prezident bildirib ki, Azərbaycan önəmli neft-qaz ixracatçısına çevrilib və əldə olunmuş gəlirləri əsasən qeyri-neft sektorunun inkişafına yönəldib.

Ölkə başçısı "Son illər Azərbaycanın neft amilindən asılılığı əhəmiyyətli dərəcədə azalmış, ÜDM istehsalında neftin payı 30 faizə enmişdir" - deyə yazıb.

İ.Əliyev onu da qeyd edib ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, özəlləşdirmə, biznes mühitinin yaxşılaşdırılması da daxil olmaqla, irimiqyaslı islahatlar həyata keçirilir.

**Dövlət başçısı "Azərbaycan üçün neftdən sonrakı dövr artıq başlanmışdır. Dayanıqlı inkişaf bizim məqsədimiz və hədəfimizdir"- deyə vurğulayıb:** "Qarşıdan gələn illərdə nəzərdə tutulmuş planlar uğurla həyata keçirilərsə, Azərbaycan neftdən asılılığı tamamilə aradan qaldıracaqdır".

Prezident daha sonra qeyd edib ki, "Cənub" qaz dəhlizi sayəsində Avropanın enerji mənbələri şaxələndiriləcək, onminlərlə yeni iş yeri yaranacaq.

**O həmçinin yazıb:** "Təkcə Azərbaycan deyil, BMT başda olmaqla, dünyanın aparıcı təşkilatları Ermənistanı işğal faktına görə günahlandırırlar".

**Sonda dövlət başçısı Azərbaycanın işğal altındakı ərazilərinin azad edilməsinin vacibliyini də xüsusi olaraq qeyd edib:** "Azərbaycan erməni xalqını deyil, Ermənistan hökumətini Xocalı soyqırımını törətdiyinə görə ittiham edir. Ermənistan öz doğma torpaqlarında qaçqına çevrilmiş bir milyon qaçqın və məcburi köçkünün iztirabına görə günahlandırılır.

Ermənistan və Azərbaycan arasında etimadın artırılması və əməkdaşlığın qurulması üçün ilk növbədə torpaqlar işğaldan azad edilməlidir".

❑ **Aygün SƏFƏRLİ**

## Gürcüstan və İran arasında viza rejimi ləğv edildi

**Gürcüstan və İran arasında viza rejimi ləğv olunub. APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə İranın Gürcüstandakı səfirinin müavini Möhsün Kebryay bildirib. O deyib ki, fevralın 15-dən viza rejiminin ləğvi hər iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına kömək edəcək: "Viza rejiminin ləğv edilməsi İran və Gürcüstan arasında ticarət dövriyyəsinin inkişaf etdirilməsinə müsbət təsir göstərəcək.**

Ölkələrimiz arasında sərbəst gediş-gəliş varsa, investisiyası olan insanlar azad şəkildə ölkəyə gələcək və investisiya yatıraraq ticarət fəaliyyətini sərbəst inkişaf etdirəcək. 2012-2013-cü illərdə ticarət dövriyyəsi 200 milyon idisə, hazırda bu 130 milyona da çatmır və əmtəə dövriyyəsini artırmaq üçün potensial var. Biz bu çatışmazlığı düzəldə bilərik".

## "ABŞ terrorçularla Türkiyə arasındakı fərqi görmür"

**"ABŞ Dövlət Departamentinin sözçüsü Con Kirbinin ABŞ-ın müttəfiqi Türkiyə ilə terrorçu PKK-nın Suriyadakı qolu "PYD" arasında fərqi görməməsinə heyrət edirik".**

"Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, bunu Türkiyə XİN-in sözçüsü Tanju Bilgiç ABŞ-ın terrorçu "YPG" ilə əlaqəsi ilə bağlı yayılan açıqlamada bildirib.

O, Türkiyə ərazisinin Suriyadakı terrorçu "PYD" və "YPG" tərəfindən atəşə tutulduğunu, buna Silahlı Qüvvələrin cavab verdiyini söyləyib.

Qeyd edək ki, ABŞ rəsmiləri terrorçu PKK-nın Suriyadakı qolu "PYD"ni terrorçu təşkilat saymır. Əksinə, "PYD"ni silah-sursatla təmin edir.



# Rusiyadan Davudoğluna cavab gəldi

## "Türkiyə Azərbaycanla olan əlaqələrimizi korlaya bilməyəcək"

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun ukraynalı həmkarı Arseniy Yatsenyukla keçirdiyi mətbuat konfransında Rusiyanı ittiham etməsi növbəti müzakirələrə yol açıb. (Ərdoğanın çıxışı 8-ci səhifədə geniş dərc edilib-red.)**

Əhməd Davudoğlu açıqlamasında Rusiyanın Gürcüstan, Ukrayna, Suriyadan sonra Azərbaycanın ərazi bütövlüyünə də təhlükə yaratdığını bəyan edib.

"Yeni Rusiya siyasətinin konsepsiyası istilaçılıq və aqressivlikdir. Abxaziyada başlayan situasiya Krımda davam etdi. İndi 3 ölkə var ki, Rusiya onların ərazi bütövlüyünü pozub: Gürcüstan, Suriya və Ukrayna. Ermənistana verdiyi dəstəkdən dolayı Azərbaycanın da ərazi bütövlüyü Rusiyanın təhdidi altındadır", - deyə baş nazir bildirib.

Türkiyə hökumət başçısının dediklərinə Rusiyanın reaksiyası gecikməyib.

Modern.az xəbər verir ki, Rusiyanın Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi **Mariya Zaxarova** haqqın.az-a açıqlamasında Əhməd Davudoğluna Osmanlı imperiyasının mövcud olmamasını xatırladıb.

"Davudoğlu anlamalıdır ki, Osmanlı imperiyası çoxdandır yoxdur. Regionda bir ölkənin diktəsi keçməyəcək. Çünki bu, müasir prinsiplərə uyğun deyil".

**Rusiya XİN təmsilçisi qeyd edib ki, Rusiya Azərbaycanla dostluq, əməkdaşlıq münasibətləri qurur və Türkiyə bu əlaqələrin zəifləməsini istəyir:** "Türkiyə bu əlaqələri korlaya bilməyəcək. Türkiyə yeni Osmanlı imperiyası rolunu oynamağa hazırlaşdı. Amma xatırlamalıdır ki, o vaxtlar bunu "Avropanın Xəstə insanı" adlandırıblar".




## "ASAN Xidmət"in "əməkdaş"ları qandallandılar

**Vətəndaşlara özlərini "ASAN Xidmət" mərkəzinin vəzifəli şəxsi kimi təqdim edərək onlara qarşı dələduzluq etmiş şəxslərin qanunsuz hərəkətləri barədə Bakı şəhər sakininin müraciəti Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən criminal.az-a verilən məlumata görə, araşdırmalar zamanı Nərgiz Elçiyevanın özünü Bakı şəhər 4 saylı "ASAN Xidmət" mərkəzinin direktorunun köməkçisi kimi təqdim edən Rəşad Rəcəbov vasitəsilə Bakı şəhər sakinini mərkəzin maliyyə şöbəsinə işə qəbul etdirəcəyi adı ilə aldadaraq 1200 manatını etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirmələrinə şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 178.2.4 (xeyli miqdarda ziyan vurmaqla dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## DTX təcridxanasının rəisi dəyişdirildi

**Dövlət Təhlükəsizlik Xidmətinin istintaq təcridxanasının rəisi işdən çıxarılıb. Lent.az-ın məlumatına görə, təcridxananın rəisi, mayor Zaur Məmmədov ötən həftə tutduğu vəzifədən azad edilib.**

Dövlət Təhlükəsizlik Xidmətinin istintaq təcridxanasına yeni rəis təyin edilib.

Lent.az-ın məlumatına görə, Fəqan Yaqubov istintaq təcridxanasının rəisi vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, F.Yaqubov buna qədər Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində işləyib.

Qeyd edək ki, ötən ilin sonlarında Milli Təhlükəsizlik Nazirliyinin bir sıra yüksək rütbəli şəxsləri həbs edilmiş, daha sonra isə nazirlik ləğv edilərək əvəzində Dövlət Təhlükəsizlik Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılmışdı.

Penitensiar Xidmətin rəisi Mədət Quliyev DTX-nin, Orxan Sultanov isə XKX-nin rəisi təyin edilib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# “Bizim market”in rəhbərinə növbəti sərt ittihamlar

## İstintaqa Rasim Salmanovun ölkədən 100 milyonlarla dollar çıxardığı haqda sənədləri təqdim olundu; biznesmen gizlicə Kanada vətəndaşlığı alıbmış!

**“Maşın bazarı”nın sahibi, “Bizim market” mağazalar şəbəkəsinin ortaqlarından olan Rasim Salmanovun Beynəlxalq Bankın sabiq rəhbəri, hazırda həbsdə olan Cahangir Hacıyevin vasitəsi ilə ölkədən 100 milyon dollar çıxardığı haqda yazmışdıq. Maliyyə xəyanəti ittihamı ilə həbsdə olan Cahangir Hacıyevin ölkədən çıxarılmasında iştirak etdiyi və vergidən yayınmaqla qazanıldığı iddia olunan 100 milyon dollar manatın birinci devalvasiyasından 2 gün əvvəl Kanada və Türkiyədəki hesablara yerləşdirilib.**

“Yeni Müsavat”ın 13 fevral sayında ““Bizim market”in rəhbəri ölkədən 100 milyon dollar çıxarıb - şok təfsilat" sərlövhəli manşet yazısı Rasim Salmanovun qayınanası Xanımbacı İsmayılovanın məktubu əsasından hazırlanıb. Yazının dərcindən sonra X.İsmayılova redaksiyamıza yeni məlumatlar verib. X.İsmayılova bildirir ki, nəvəsi 1989-cu il təvəllüdlü Sahib Quliyev böyük sifarişin qurbanı kimi həbsdədir: “Müstəntiq Vüqar İsmayılov Rasim Salmanovu razı salmaq və onun sifarişlərinin sözsüz icra edilməsini göstərmək üçün Sahib Quliyevə məxsus mənzildə axtarış apardı. Həmin axtarışın əsası və səbəbi hələ də ona aydın deyil, müstəntiq o evdə nə axtarırdı?! Bir neçə əməliyyat müvəkkilinin iştirakı ilə 10 fevral 2015-ci ildə Vüqar İsmayılov böyük axtarışlara başladı. Axtarışın sonunda tam qanunazidd olaraq mənzildən Sahib Quliyevin anası Həcər Quliyevaya məxsus şəxsi əşyalar - sənədlər, mobil telefon, ətir qabları, bir neçə mağazanın reklamı kimi ona verilmiş kataloqlar, xırda qızıl-zinət əşyaları, gündəlik istifadə edilən 4-5 ədəd əl çantası, 1000 dollar məbləğində pul, mənə məxsus üzük, sırğa, adi boyunbağı, xəstəlik kağızları, Sahib Quliyevə məxsus hərbi bilet, sənədlər, evin daşınmaz əmlakdan çıxarışının əsli və cinayət işi ilə bağlı olmayan bir sıra sənəd və əşyaları götürdü. Hətta müstəntiq qadınlara məxsus şəxsi gigiyenik əşyalara da baxdı. Bütün bunlar ailəyə zorakılıq və hədə-qorxunun göstəricisidir. Əsas səbəb isə Rasim Salmanov tərəfindən ailəyə məxsus əmlakları ələ keçirərkən kimlərinsə etirazının qarşısını almaqdır”.



Rasim Salmanov

**Onun sözlərinə görə, evdə aparılan axtarış iş üçün əhəmiyyətli sayıla bilməz:** “Evdə heç nə aşkar edilmədi. Heç edilə də bilməzdi. Çünki süni şəkildə cinayət işi başlanıb və bu yalnız və yalnız təzyiq vasitəsi idi".

**“Bizim marketlər” şəbəkəsinin rəsmi sahibi Xanımbacı İsmayılovanın bildirdiyinə görə, marketlər şəbəkəsi rəsmi olaraq onun adına olsa da, biznesi bilavasitə onun kürəkəni Rasim Salmanov idarə edib, ailəyə çatacaq milyonlarla pulu müxtəlif vasitələrlə Türkiyə Respublikasına, ordan da Kanadaya ötürüb:** “Bu faktların üstü bank hesabları vasitəsilə açıldıqdan sonra Rasim Salmanov ailəni neytrallaşdırmaq qərarına gəlib. Əvvəlcə məsələni zorakılıq və öz üsulları ilə həll etməyə başladı. Ailəmizi güddürdü, hədə-qorxu gəldilər. Bundan sonra ailəni neytrallaşdırmaq üçün Rasim Salmanov polisdəki yaxın tanışlarından istifadə etməyə başladı. Nəvəm Sahibi özünün yalan məlumatları ilə həbs etdirdi”.

**X.İsmayılova bildirib ki, Rasim Salmanov və onun ailə üzvləri Kanada vətəndaşlarıdır:** “Ailəliklə Kanada vətəndaşıdırlar. Onlar bu vətəndaşlığı Azərbaycandan külli miqdarda pulları tam çıxardıqdan sonra rahat şəkildə gedib Kanadada səfalı ömür sürmələri üçün əldə ediblər. İstintaqa Rasim Salmanovun ölkədən 100 milyonlarla dollar çıxardığı haqda sənədləri təqdim etmişəm. Lakin nəzərə almırlar, bir kənara ataraq yalnız Rasim Salmanovun xeyrinə və sifarişi ilə iş aparırlar. Azərbaycan Respublikasının Miqrasiya Xidməti bu məsələni mütləq araşdırmalıdır. Çünki Azərbaycan ikili vətəndaşlıq tanınmır və Rasim Salmanov bu günədək Kanada vətəndaşı olmasını dövlət orqanlarından gizlədir. Cinayət Məcəlləsinin 318-2-ci maddəsinə əsasən xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi cinayət hesab edilir. Kanada vətəndaşlığını dövlət orqanlarından gizlədən Rasim Salmanovun niyyəti açıq-aşkar bəllidir: "Ölkədən külli miqdarda pul vəsaitlərini çıxardıqdan sonra ölkədən qaçıb getmək və dəbdəbəli həyat tərzini davam etdirmək".

**X.İsmayılovanın ittihamları ilə bağlı R.Salmanovun mövqeyini dərc etməyə hazırıq.**

❑ E.HÜSEYNOV

**Bir neçə gündür sosial şəbəkələri, mətbuat gündəmini iki xəbər zəbt edib: biri cavan bir qızın özəl həyatı ilə ilgili sonu intihara gətirən əməli, o biri namus üstündə on altı yaşlı nəvəsini boğan, sonra qulağını, cinsiyyət orqanını kəsən babanın olayı. Bu babanın dediklərinə inansaq, nəvəsi ona namussuz deyib və şəhidinin göruna söyüb. Amma bu görünən səbəbdir axı... Görünməyənlərdən kimsə danışmır.**



Jalə MÜTƏLLİMOVA

# Evlərdə zorlanan oğlan və qız cocuqlar...

***

Əvvəla, intihar, ya da kimisə öldürmək məsələsindən deyək. İkisi də cinayətdir. Birini adam özü-özünə qarşı törədir, o birini kimsə adama qarşı törədir. İntihar eləmək, mənə görə, acizlikdir. Kimisə öldürməyə gəlincə... Bu da acizlikdir. Situasiya təxminən belədir: Maddi güclü olduğun kimsə özünü qəbul etdirə bilmirsən. Və gücündən istifadə edib onu öldürürsən. Ölən də də o sənə, məsələn, söyüb ölür. Səni böyük, ağsaqqal, haqlı bilmir ki?! Dediyində, fikrində qalır. Hər iki halda məğlubdur insan. Bunlar alayı məsələlərdir. Mən o iki nəfərin, yeniyetmə oğlanın və gənc qızı ölüməcən gətirən yoldan danışmaq istəyirəm sizə.

***

Bu arada onu da deyim, söyləyəcəklərimlə kiminsə razılaşıb razılaşmayacağı barədə nəsə deməyəcəm. Çünki həmişə kimsə ya razılaşır, ya da razılaşmır. Hərdən “boş-boş danışırsınız” deyən də tapılır. Ancaq bütün deyilənlərə rəğmən söyləyim ki, o, qızın ölümünün səbəbi təkcə özü deyil. Heç o oğlanın da. Onları həm də bizim cəmiyyətdə qıza, qız cocuğuna və oğlan uşağına olan münasibət öldürür.

***

Hər şey lap əvvəldən başlayır. Qız övladı dünyaya gətirən anaya “qızın oldu, qırmızı donu çıxar” deməkdən. Sonra o qız bir az böyüyür. Elədiyi hər dəcəllikdə ona iradlarımızın içində ən vacib olanlardan biri belə olur: “Ayıbdı, sən qızsan axı”... Beləcə, o qızın gözü önündə özündən kiçik qardaşının, qonşu oğlanların, əmi, dayı oğullarının bütün dəcəlliklərinə göz yumulur. Heç kim oğlan cocuğunun əməlinə qıza verdiyi qədər sərt reaksiya vermir. “Eləmə, sən oğlansan axı” deyən olmur.

Bu minvalla o dəcəl qız cocuqlarında niyəsini açıqlamadığımıza, sadəcə “olmaz” qadağasını qoyduğumuza görə ciddi xaraktersizlik kompleksinin himini qoyuruq.

***

Qadağa sahiblərinin, yəni valideynlərin olmadığı bütün yerlərdə isə onlar, yəni qız cocuqları istədiyi dəcəlliyi eləyir. Hərdən bunu o qədər məharətlə edirlər ki, heç ruhumuz da incimir. Beləcə, xəlvətcə elədikləri dəcəlliklərdən həm də həzz alırlar. Heç nədən məlumatı olmayan valideynlərsə “nə ağıllı qızın var” tərifindən həzz almaqlarında olurlar bu arada.

Amma heç anlamayacaqlar ki, qız cocuğu dediyimiz o uşaq artıq ailəsini aldatmaq, nəyisə xəlvətcə etmək bacarığına sahiblənir yavaş-yavaş...

***

Artıq həmin qız cocuğu böyüyüb məktəbə gedir. Evdən çıxan uşağa çoxumuzun rast gəldiyi valideyn tövsiyələri əsasən bunlardan ibarət olur: “Oğlanlarla oynama! Qız uşağı oğlanla oynamaz”; “Yeməyini heç kimə vermə. Kimsədən yemək alma” və sair. Özü də bunu deyən hər kəs öz təcrübəsindən dəqiq bilir ki, dedikləri əhəmiyyətsiz sözlərdir. Noolsun ki, qarşısındakı uşaq susub ona “yaxşı” deyib gedəcək. Sizə dəqiq deyirəm, həmin o balaca gedib məktəbdə oğlanlı-qızlı bütün oyunlara da qatılacaq. Üstəlik öz yeməyindən pay verib, başqasından yemək, su da istəyəcək. Evdə isə gəlib əminliklə deyəcək ki, oynamadım, almadım, yemədim. Valideyni də başını sığallayıb “afərin” söyləyəcək. O körpə də bic-bic gülüb ata-anasının inanmasına sevinəcək. Amma heç kim anlamayacaq ki, qarşısındakı körpə yalan danışmaq bacarığına sahiblənir yavaş-yavaş.

***

O qız yavaş-yavaş həm də həddi-buluğa çatır. Və bir gün gələcək kimsə ağlının kəsmədiyi bir söz deyəcək ona. Deyəsək ki, “səni sevirəm”. Ya öz yaşıdı olacaq, ya da özündən yuxarı sinifdə oxuyan bir oğlan olacaq bu. Ya anaya qaçacaq, ya da doğma bildiyi bibi-xalaya. İstənilən halda çevrəsində olan qadınların hamısından ilk reaksiya qiyyə çəkmək olacaq. Təxminən belə: “Boooyyy, ay qız, a bala, ayıbdı, əmin bilsə, öldürər, dayın bilsə, kəsər, qardaşın bilsə, durduğumuz yerdə zibilə düşərik...Hələ atan hiiiyyyy, o bilsəəə....Hamımızı qırar ee, qırar...”

Beləcə, bu yazıq qız cocuğu ilk dəfə eşitdiyi “səni sevirəm” kəlməsinin faciədən başqa heç nə törətməyəcəyini anlayıb, susacaq. Amma içində özünün də anlamadığı, adını qoya bilmədiyi yaşda olduğu bir duyğusu varsa, mütləq əməlləri ilə qarşılıq verəcək yaşıdı olan həmin oğlana. Özü də xəlvətcə, kimsə bir şey bilməyəcək. Yenə də heç kim anlamayacaq ki, o qıza həm də ikili həyat yaşamağın yolunu öyrənir yavaş-yavaş...

***

Burdan yeni bir mərhələ başlayır. Məsələn sinif yoldaşları ilə hansısa ziyafət, məktəb karnavalları-filan təşkil edilir. Hamısına qardaş gedər, o qız cocuğu getməz. Niyə? Qızdır, ayıbdır axı. O qız da heç nə deməz, susar. Başlayar, bilirsinizmi, nə eləməyə? Məsələn, evdən uzun ətəklə (ya da ətəyinin belini bir neçə dəfə çevirib qatlayaraq) çıxıb məktəb ayaqyolusunda əynini dəyişər, haradansa əldə elədiyi qısa ətəyi geyinib yoldaşlarının arasına qatılar.

Amma heç anlamaz ki, bu qız artıq təkcə ailəsindən yox, ona uşaqlıqdan ta indiyəcən qoyulan bütün qadağaların heyifini çıxmağa başlayır yavaş-yavaş...

***

Sonra o qızı bütün elədiklərini aşkarca eləməyə başlayar. Daha heç kimdən qorxmaz, çəkinməz, utanmaz. Çünki yetkinlik yaşına çatıb artıq, vətəndaşdır. Hətta ali məktəbə də daxil olub. Müstəqil adamdır. Məsələn, kefi istəsə dərsə girməz, dərs oxumaz, imtahanlar, kəsirlər onu ilgiləndirməz. Kefi istəyən rəfiqə və dostlarla kefi istədiyi yerlərə gedər, əylənər. Hətta ürəyi istəsə evə də gəlməz. Ona təsadüfənmi, yoxsa gerçəkdənmi “ səni sevirəm” deyən birilə yaşamağı üstün tutar. Və kimsə anlamaz ki, artıq bu addım qızın yavaş-yavaş hazırlaşdığı sona doğru ilk addımdır...

***

Bir gün də gələr, o, heç evinə dönməz. O biri gün sevgilisindən də bezər. Ona qadağa qoyan insanların üzünə hayqırar. Həmin insanlar, cəmiyyət dediyimiz nəsnə onun bu hərəkətinin adını əxlaqsızlıq, tərbiyəsizlik, nankorluq qoyar. Amma anlamazlar ki, bu yaşanmamışların üsyanıdır. O qızın hərəkətlərində üzə çıxır yavaş-yavaş...

***

“Olmaz olsun elə qız” deyər hamı bir ağızla. Kimsə ona sevgi dolu qucaq açmaz. Kimsə olduğu kimi qəbul eləməz onu. Malalı, hamar görüntüyə alışıqdır bizim cəmiyyət. Kor-kobud yontalanmamış material görəndə özünü əziyyətə verməz axı kimsə. Yenə də kimsə anlamaz ki, biganəliklə, vecinə almamaqla aşınırıq, sıradan da, insanlıqdan da çıxırıq yavaş-yavaş....

***

Günlərin birində “mən sizə əziyyət verdim, bilirəm, amma mən də bezdim, yoruldum” sözləriylə bir məktub yazar. Özünü indiyə qədər içində asıb edam eləmiş adamın intihara qərar verməsi çox rahat olur, məncə. O qız da belə edər. İçindəki özünü intihar qərarını bu dəfə aşkar göstərər hamıya. Və adamlar ancaq onda anlayar ki, insana hər şeyi yaşamaq imkanı vermək lazımdır.

Təbii ki, bilmədiyini anlatmaq, öyrətmək, yol göstərmək, məsləhət verməklə həm də. Lap öz övladımız olsa belə o bizim kimi olmamalıdır. Bizə bənzəməməlidir. Bizim ənənəni yaşatmaq öhdəliyi, borcu yoxdur onun. Və lap əgər varsa belə bunun borc olduğunu xatırladanda onlar məhz valideyn təzyiqi üzündə əməl etməyəcəklər o ənənələrə. Ümumiyyətlə isə hərənin özü olmağa, özü kimi yaşamağa haqqı var axı. Övlad əmlak deyil, əmanətdir. Məncə, hər şeyi onların ölüm xatırlatmamalıdır, zəhmət çəkib valideyn özü də başa düşməlidir bunu. Onlar, ölməmişdən, öldürülmədən əvvəl başa düşməlidir özü də...

***

Deyəcəksiniz ki, elə qızdan danışdı, oğlanları demədim heç bu. Düzdür, demədim, bilirsinizmi niyə? Bizim oğlanların əksəriyyəti, bizim cəmiyyətin, ailələrin, onlar üçün guya ki, qadın deyib böyütdüyü natamam arvadlarla yaşamağa məhkumdurlar. Və deyim ki, kimisə zorlayan, babasına namussuz deyən, şəhidinin göruna söyən də yuxarıda söylədiyim şitəndirib, qudurtduğumuz oğlan cocuqları var haa, bax, onlardır...



# Xaraba ölkədəki qan vulkanı

Xalid KAZIMLI

**Əvvəllər çoxları "Nə olacaq bu Suriyanın halı" deyərdilər. Hamı söhbət xatirinə maraqlanırdı. İndi ritorika dəyişib, insanların əndişəsi artıb və onlar Suriyanı nəzərdə tutaraq, "Nə olacaq dünyanın halı" deyə soruşurlar.**

Çünki bu ölkə hazırda dünyanın əsas sinir yumağına çevrilib. Hamı fərqindədir ki, yer üzünün taleyi bu regionda həll olunur. Müharibənin alovlanması onsuz da qaramat günə qalmış dünyanın halını daha da bərbad edə bilər.

Ötən əsrin ikinci yarısından sonuna qədər davam edən "soyuq müharibə", eləcə də ABŞ-la Rusiya arasındakı əzəli düşmənçilik, "kim kimi" məsələsinin həlli yenidən aktuallaşıb və münasibətləri ayırdetmə yeri Suriyadır.

Suriyada və onun ətrafında gedən prosesləri hələ keçən ildən "III dünya müharibəsi" hesab edənlər vardı və onlar indi daha artıq dərəcədə haqlı görünürlər. Əməlli-başlı dünya müharibəsi başlayıb.

Bu müharibəyə bu və ya digər şəkildə qatılan dövlətlərin siyahısına baxaq: ABŞ, Rusiya, Türkiyə, İraq, İran, Səudiyyə Ərəbistanı, Qətər. Hələ NATO da artıq müharibənin içindədir. Hər kəsin əli tətikdədir.

Suriyadan qaçqın düşənlər bütün Avropaya səpələniblər, Kanadaya qədər dağılıblar. Onlar istər-istəməz daxil olduqları ölkələrin, demək olar ki, hamısının daxili durumunu gərginləşdirirlər.

Bu səbəbdən Avropa Suriya müharibəsinin fəsadlı nəticələrini öz canında hiss edir, heç cür bitərəf qala bilmir.

Ancaq belə görünür ki, müharibənin ən qanlı mərhələsi hələ indi-indi yaxınlaşır.

Bu vaxta qədər bu ölkədə 500 minə yaxın insan öldürülüb, bundan sonra da nə qədər adamın öldürüləcəyini təxmin etmək belə çətindir. Bir neçə milyon insan ölkəni tərk edib, kütləvi köçün davam edəcəyi gözlənilir.

Aktiv hərbi əməliyyatlar gedən, hər gün bambalanan şəhər və qəsəbələrdə bir salamat bina qalmayıb. Ölkə başdan-başa dağıntıların içindədir və sözün birbaşa mənasında xaraba qalıb.

İndi İsrail xaraba qalmış Suriyanın bölünməsi təklifi ilə çıxış edir, ancaq bu, indilikdə baş tutacaq plan deyil. Müharibəyə qarışan dövlətlərin bu fikrə gəlməsi üçün qarşı duran tərəflər bir-birilə daha bərk toqquşmalıdır, hər tərəfdən yüz minlərlə itki verilməlidir, ölkə tamamilə darmadağın olmalıdır ki, axırda yandırılmış, yağmalanmış torpaq üzərində sülh danışıqları başlasın.

Böyük müharibələrin qaydası budur: tərəflər heç vaxt ziyanın yarısından qayıtmırlar. Xüsusilə də çox dövlətin qarışdığı müharibələr daha tələfatlı, daha dağıdıcı və daha faciəvi olur.

İndi də elə olacaq. Rusiya və İrandan maddi-hərbi-siyasi dəstək alan Əsəd qüvvələri iki il əvvəlki ilə müqayisədə düşmənlərinə qarşı daha böyük dirəniş göstərir, hətta artıq hücum mövqeyindən çıxış edirlər. Rəsmi Dəməşq Hələbi geri almaqdan bəhs edir, Türkiyə isə bu şəhərin müdafiə olunmasını vacib sayır. O tərəfdə kürdlər, türkmənlər İŞİD-ə və Əsəd qüvvələrinə qarşı döyüşürlər. Hamı da sonra qədər döyüşmək əzmindədir.

Suriya bölünəcəksə, demək, İŞİD-ə də böyük ərazilər düşəcək. Belə bir dövlətin mövcudluğu olan regionda heç vaxt sülh ola bilməz. Bu, terrorçuların qurduğu ilk dövlət olaraq tarixə düşər, presedent yaranar.

Hazırda ən azı 5 yerə parçalanmış Suriyanın yerində neçə dövlətin qurulacağı da müəmmalıdır. O da bilinmir ki, yeni dövlətlər məzhəb əlaməti üzrə formalaşacaq, yoxsa milli mənsubiyyət üzrə. Hər şey qarışıqdır.

Suriyanın başına gələn bu vaqiə ölkənin uzun illərdən bəri ata-oğul despotlar tərəfindən idarə olunmasının, ölkənin istibdad yuvası olmasının nəticəsidir. Çoxmillətliliyin, çoxməzhəbliliyin olduğu ölkə demokratik üsullarla idarə olunmayanda olacağı budur.

Bir neçə millətin hegemon olduğu Belçika da zaman-zaman bölünmə təhlükəsi yaşayır, ancaq heç kəs silaha əl atmır, problemi parlamentdə müzakirəyə çıxarır, referenduma götürür, axırda belə bir qərara gəlirlər ki, hələlik birlikdə yaşasalar, yaxşıdır.

İstənilən konflikti silahla, zorla həll etmək bizim coğrafiyanın, şərqin təməl vərdişidir. Buralarda başqa yol bilmirlər.

Bu xaraba qalmış ölkə sanki qan püskürən bir vulkandır və onun lavası yavaş-yavaş bütün dünyaya yayılır.

# Prezidentin ardıcıl Avropa səfərlərinin sirri

## Müxalifət düşərgəsindən ilginc dəyərləndirmələr

**Prezident İlham Əliyevin Münhen səfəri onun son iki ayda Avropaya sayca üçüncü səfəri idi. Bundan öncə prezident Londonda dünyanın nüfuzlu dövlətlərinin və təşkilatlarının keçirdiyi Suriyaya dəstək konfransına, ondan əvvəl isə Davos İqtisadi forumuna şəxsən qatılmışdı. Son aylarda prezident arda-arda Avropada keçirilən tədbirlərə şəxsən özü qatıldı.**



Zahid Oruc



İqbal Ağazadə



Pənah Hüseyn

**Deputat Zahid Oruc** bildirib ki, prezident beynəlxalq əlaqələri yüksək səviyyədə saxlamaqla həm də Azərbaycanın təcrid olunmasının qarşısını alır və bu istəkdə olan dairələrin mövqeyinə zərbə vurur.

Bəs müxalifət partiyalarının sədrləri bu səfərləri necə dəyərləndirir?

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, arda-arda Avropa səfərləri Azərbaycanın fərqli istiqamətə getməyəcəyini bəlli edir: "Biz daim Azərbaycan iqtidarının, istər prezidentin, istər digər səlahiyyətlilərin Avropa ilə, demokratik dünya ilə sıx təmasının tərəfdarı olmuşuq. Biz anlayırıq ki, bu təmaslar Azərbaycanı Avropaya yaxınlaşdıracaq. Neqativlər nə qədər olsa belə, Avropa cəmiyyətində olmaq, Avropa siyasi coğrafiyasında olmaq, o coğrafiyanın müzakirə etdiyi tədbirlərdə iştirak bizi demokratik dünya ilə daha sıx təmasa məcbur edir. Biz həmişə bunun tərəfdarıyıq, nəinki Avropadan, demokratik dünyadan uzaq düşüb avtoritar idarəçiliyi əsas götürüb özünə qapanmış ölkələrlə yaxınlaşmağın. Son ard-arda Avropa səfərləri protokoldur, protokol deyilmi, bu əvvəlcədən hazırlanıbmı, hazırlanmayıbmı? Bununla bağlı dəqiq fikir yürütmək çətindir. Təbii ki, heç bir dövlət başçısı əvvəldən planlı şəkildə tədbirlərə gedir. Əvvəlcədən hazırlanır, protokol qaydaları müəyyən olunur. Amma hər bir halda bu səfərlərin əhəmiyyəti var. Azərbaycanın fərqli istiqamətə getməyəcəyini bəlli edir. Azərbaycan Avropa siyasi coğrafiyasından kənara çıxmayacaq. Buna görə də hesab edirəm biz bu məsələdə daha çox dəstək verməliyik ki, Avropa ölkələri Azərbaycanla əlaqələri heç bir halda kəsməsinlər. Hətta səfirlərlə, beynəlxalq təşkilatlarla görüşlərimizdə də biz Azərbaycanla sıx təmasa dəvət etmişik".

**AXP sədri Pənah Hüseyn hesab edir ki, prinsip etibarilə yuxarıda adıçəkilən beynəlxalq tədbirlərdə iştirakı Azərbaycanın maraq və mənafeləri üçün səylər göstərmək kimi dəyərləndirmək mümkündür. Eyni zamanda hakimiyyətin özünə qarşı olan təzyiqləri mümkün qədər azaltmaq istəyi kimi də qiymətləndirmək olar:** "Avropadan və ABŞ-dan Azərbaycan iqtidarını təcrid eləmək çağırışlarının olduğunu bilirsiniz. Bu təzyiqlərin və çağırışların qarşısının alınması baxımından Avropa dövlətlərində keçirilən həmin tədbirlərə qatılmaq əhəmiyyətli sayılıb".

**VİP sədri Əli Əliyev isə bildirdi ki, ölkədə yaranmış və anbaan dərinləşən böhran hakimiyyəti tam olaraq hərəkətləndirib. İqtidar həm daxildə, həm də xaricdə ciddi hərəkətə keçib:** "Ölkə prezidenti ardıcıl xarici səfərlərə gedir. Diqqət edin, bölgələrə kimlər gedir? Prezidentə ən etibarlı sayılan, vacibi isə təsir gücü olan komanda üzvləri ictimaiyyətlə işə cəlb edilib. Vəziyyətin ağırlıq əmsalını prezident Əliyevin öz dinamikliyi də əks etdirir. Fikrimcə, bunu yalnız siyasi komponentlə əlaqələndirmək düzgün olmaz, siyasi tərkibin təsirini azaltmaq da yanlışa yuvarladar. Maraqlısı odur ki, bu gün baş verənlər hakimiyyətin son 20 ildə üzləşdiyi ən mürəkkəb müşküldür. Situasiyanın ağırlıq inqredientləri çoxdur. Siyasi, maliyyə, iqtisadi problemlərlə yanaşı, dolaşıq beynəlxalq situasiya da tablonu tündləşdirir. İqtidarın istinadgahı olan 2 dövlət-Türkiyə və Rusiya münasibətlərinin müharibə həddində olması, Rusiyanın bütün sivil dünya ilə konfrontasiya şəraitində yaşaması, ABŞ və Avropa Birliyinin, ATƏT və Avropa Şurasının son dövrlər YAP hakimiyyətinə nümayiş etdirdiyi davranış gərginliyi bir qədər də artırır. Ona görə də prezidentin səfər coğrafiyasını bir qədər geniş çapda dəyərləndirmək daha düzgün olardı. Düşünürəm, hakimiyyət üçün vəsait axtarışı mühüm əhəmiyyətlidir. London və Münhen səfərləri siyasi xarakterli görünsə də, iqtisadi alt yapısı üzə çıxmaqdadır. Dövlət başçısının London səfərindən sonra iqtisadi mahiyyətli 2 xəbər ictimailəşdi. Fevral ayının 12-də iqtisadi inkişaf naziri Şahin Mustafayev Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbəri Suma Çakrabati ilə görüşüb. Təqribən eyni vaxtda Beynəlxalq Valyuta Fondunun rəhbəri Kristin Laqard Azərbaycan məzmunlu açıqlama verdi. Bu hadisələrdə prezident Əliyevin beynəlxalq əlaqələri və nüfuzu rol oynamış görünür".

❑ Etibar SEYİDAĞA

# İngiltərə "çirkli pullarla" mülk alan əcnəbilərə qarşı

**İngiltərə hökuməti qəbul etdiyi yeni qanunla Londonda korrupsiya pulları ilə mülklər alan əcnəbilərin adlarını açıqlayacağını bəyan edib. Nüfuzlu "The Guardian" qəzeti yazır ki, rəsmi London bu ölkədə mülk alan korrupsionerlərin çirkli pulları ilə mübarizəyə başlayacaq.**

Yayılan məlumatlarda o da qeyd olunur ki, Londonda bahalı mülklər alan offşor təşkilatlardan bu mülklərin əsl sahiblərinin adlarının açıqlanması tələb olunacaq. "Transparency International" və "Global Witness" təşkilatlarının hesabatlarında qeyd olunur ki, paytaxt Londonun ən bahalı və dəbdəbəli mülklərinə hazırda Britaniyanın Virgin adalarında qeydiyyatda olan offşor trestləri sahibdirlər. Yeni qanuna görə mülklərin əsl sahiblərinin adlarını açıqlamayan şirkətlərin mülkiyyətləri əllərindən alınacaq.

Yayılan məlumatlarda diqqətçəkən məqamlar çoxdur. Bildirilir ki, mülklər sırasında Rusiya prezidenti Vladimir Putinin çevrəsinə yaxın şəxslər tərəfindən alınanlar daha çoxdur. Bu isə məsələnin arxasında siyasi məqamların olduğunu deməyə əsas verir. Çünki zaman-zaman Londonda müxtəlif ölkələrdən mülkləri olan çoxlu sayda şəxsin adı çəkilib. Hətta Azərbaycan məmurlarının bəzilərinin də adları bu məlumatlarda keçir.



**Mehman Əliyev:**
"Şübhə doğuran kapitallar ölkədən çıxarıla bilər"



**Qabil Hüseynli:**
"Putindən başlamanın səbəbi..."

Ekspertlər hesab edirlər ki, İngiltərə hökumətinin atdığı addım Qərbin Rusiyaya qarşı növbəti təzyiq mexanizmlərindən biridir.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, böyük miqdarda çirkli pullar Avropada maliyyə bazarını zəiflədir:** "Dünyada gedən proseslər şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin göstəricisidir. Vaxtilə bu barədə xəbərdarlıqlar olunmuşdu. Ona görə də məsələnin məhz indi gündəmə gətirilməsinin arxasında nəsə axtarmaq doğru olmazdı. İngiltərədə şübhə doğuran kapitallar ölkədən çıxarıla bilər. Müəyyən mənada bunları mülk sahiblərinin aid olduğu ölkələrə təzyiq kimi də qəbul etmək olar. Putinə qarşı son vaxtlar təzyiqlər artıb. Bu ondan irəli gəlir ki, vaxtilə Rusiya Qərbə qarşı bu tipli təzyiqlər edirdi. Hazırda Rusiyaya təzyiq etməklə digər ölkələrə ediləcək təzyiqlər asanlaşır".

**Politoloq Qabil Hüseynli son aylarda Putinin şəxsi vəsaitləri barədə Qərb mətbuatında xəbərlərin artdığını bildirdi:** "Bir müddət əvvəl ABŞ-da film nümayiş etdirildi. Orada Putinin böyük varidata sahib olduğu iddia olunurdu. Söhbət 40-100 milyard dollar varidatdan gedirdi. İngiltərə mətbuatında da tez-tez Putinin sərvətinə müraciət edilir. Bəzən 200 milyard rəqəmi də göstərilir. Son vaxtlar onu korrupsiya yolu ilə sərvət toplamaqda da günahlandırırlar. Hətta Putinin bir sıra cinayətlərdə, eləcə də qeyri-əxlaqi hərəkətlərdə adı keçir. İngiltərə liqasının iki güclü komandası rus oliqarxlarının əlindədir. Burada söhbət milyardlarla dollardan gedir. Rusiyanın əksər oliqarxlarının İngiltərədə böyük malikanələri, qəsrləri var. Putindən başlamanın səbəbi onu korrupsioner, öz xalqının pullarını mənimsəyən dövlət başçısı kimi təqdim etməkdir. Putin və ona yaxın şəxslərin sərvətlərini dondura da bilərlər. Qərb qanunlarında belə hissələr var ki, qanunsuz yollarla mənimsənilən pullar geri qaytarılmaya, yaxud onların üzərinə həbs qoyula bilər. Hesabına həbs qoyulmuş şəxs tutarlı sübutlar təqdim etməyənə qədər vəsait geri qaytarılmır. Bu baxımdan hesab edirəm ki, İngiltərədə qəbul edilmiş yeni qaydalar mövcud qanunvericiliyə uyğundur. Hazırda hədəfdə Putindir. Onunla məsələni çürütdükdən sonra hədəfdə yeni-yeni oliqarx və dövlət başçıları ola bilər".

❑ Cavanşir ABBASLI

# Nazir özü haqda gəzən şayiələrə “Yeni Müsavat”da aydınlıq gətirdi

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin adı son iki gündə mətbuatda hallandırılır. Yayılan xəbərlərə görə, “Şahdağ” Turizm Kompleksinə ailəvi istirahətə gedən nazir oradakı restoranlardan birini bağlatdırmaqla yüzlərlə turistin ora girişinə mane olub.**



# “Bu, mənə qarşı düşmənçilikdir” - Əbülfəs Qarayevlə özəl müsahibə

Mədəniyyət və turizm naziri “Şahdağ” Turizm Kompleksində restoran bağlatması haqda yayılmış informasiyaları təkzib etdi; o, ciddi ipucları və mesajlar verdi; “Kiməsə “yox” deyirsən, kiminsə istədiyini eləmirsən, bununla da düşmənlərin əmələ gəlir”

*“Yeni Müsavat”ın əməkdaşları bu xəbərin izi ilə nazirlə telefon əlaqəsi yaradıb. Xoşbəxtlikdən Ə.Qarayev ona etdiyimiz telefon zənginə cavab verib. Fürsətdən istifadə edib həm bu şayiə, onun necə yaranması barədə ondan soruşduq, həm də mədəniyyət və turizm sektoru ilə bağlı bizi, həmçinin cəmiyyəti maraqlandıran bəzi məsələlərə aydınlıq gətirməsinə çalışdıq.*

***- Əbülfəs müəllim, çox istərdik ki, öncə “Şahdağ”da restoran bağlatdırmanızla bağlı yayılan xəbərlərə münasibətinizi öyrənək. Digər suallara sonra keçərik...***

- Haqqımda çoxlu belə şayiələrin mövcud olması məni təəccübləndirmir. Bir dəfə maşınla Qubaya getmişdim. Xəbər çıxdı ki, guya maşınla inək vurmuşam. Bu da təxminən həmin inək vurma məsələsinə bənzəyir. Çünki bu, yanlış bir məsələdir. Birincisi odur ki, "Şahdağ"da bir neçə restoran var. Onların birində onlarla, yüzlərlə insanı gözlətdirmək olmaz. Ümumiyyətlə, bu sistem mümkün deyil. İkincisi, mən Şahdağa ayda iki-üç dəfə, özü də həftəsonları gedirəm. Nəzarət edirəm, vəziyyətə baxıram. Mən oranın tikintisində yaxından iştirak etmişəm. Cənab prezidentin tapşırığı ilə oranı ərsəyə gətirmişik. “Şahdağ”a indən sonra da getməyə davam edəcəm, bu, mənim vəzifə borcumdur.

Üçüncüsü, mən o restoranda yemək də yeməmişəm. Cəmi bir dəfə, səhər yeməyi zamanı ora düşmüşəm. Səhər yeməyində də restoran bağlatdırmaq ənənəsi nə Azərbaycanda, nə də dünyanın hansısa ölkəsində var. Kimsə məni görüb, bəlkə kimsə salam verib, görməmişəm, xətrinə dəyib. Götürüb bu cür yalan məlumatı yayıb cəmiyyətə. Allah canını sağ eləsin. Mən bu şeylərə tamamilə biganə münasibət bəsləyirəm. Mənə maraqlı deyil. Öz işimlə məşğulam, məni də bundan heç kim yayındıra bilməz. Dövlət adamıyam, heç vaxt özümə rəva bilməmişəm ki, mənəvi cizgilərdən çıxım. İndi bunu kimlər qəbul edirsə etsin, etməyənlərin də Allah canını sağ eləsin. İndi yazırlar da, nə edim? Gedib hamısına bir-bir deyim ki, yazma?

***- Dediyiniz məsələ bu qədər sadə və bəsit ola bilərmi? Bəlkə bu sayaq xəbərin yayılmasında sizi sevməyən hansısa qüvvələr var?***

- Ola bilər ki, bunun arxasında məni istəməyənlər, düşmənlərim var. Mümkündür.

***- Təxminləriniz hansı istiqamətdədir? Kimlər ola bilər?***

- Bilmirəm. Elə düşünürsünüz ki, nazirin vəzifəsi hamıya yaxşılıq eləməkdən ibarətdir? Kiməsə “yox” deyirsən, kiminsə istədiyini eləmirsən, bununla da düşmənlərin əmələ gəlir. Belə şayiələrin xüsusi olaraq yayılmasını həm də dövlətə, hökumətə qarşı təxribat hesab edirəm. Mən cənab prezidentin siyasətini öz sahəmdə yerinə yetirən adamam. Hər hansı müxalifət qəzeti, hansısa sayt yazır ki, Əbülfəs Qarayev bir iclasda oturub, onun arxasında da Qarabağı çıxarmaqla, Azərbaycanın xəritəsini veriblər. Bunlar lap uşaq danışıqlarıdır. Bizim Azərbaycan mədəniyyəti üçün beynəlxalq səviyyədə, UNESCO-da Azərbaycanın təbliğatı üçün etdiklərimizin müqabilində götürüb belə şeylər yazırlar. Kim kampaniya başlayıb, niyə başlayıb - bilmirəm.

***- Daşın sizə hansı istiqamətdən atılması ilə bağlı yəqin ki, təxminləriniz var...***

- Bu, mənim daxili düşüncələrim və qənaətlərimdir. Onları bölüşmək fikrində deyiləm. Mən özümü hamı ilə bərabər tuturam. Özümə, hərəkətlərimə, davranışlarıma, danışıqlarıma arxayınam. Ona görə də kimsə nəsə yazırsa, yazsın.

***- “Şahdağ”dan söz düşmüşkən, orda qiymətlərin baha olması barədə ciddi narazılıqlar var. Xüsusən də istirahət kompleksindəki xidmətlərdə, kafe-restoranlarda.***

- Orda qiymətlər bildiyimə görə normaldı. Dünən (srağagün-red.) orda olduğum zaman da müşahidə etdim. Yanımda Rusiyadan gəlmiş üç nəfər vardı. Onlardan biri başqasına telefonla zəng edib dedi ki, “mən burda qalacam, çünki burdakı otağın əlimdən çıxmasını istəmirəm, adamları da gətirin bura, çünki qiymətlər əlverişlidir”. Digər tərəfdən, qiymətlərin də çox aşağı salınmasına imkan görmürəm. Çünki bunun binası var, yeməyi var, servisi var. Orda Avropa standartlarına uyğun servis var. Hotelin dərəcəsi müəyyənləşdirilib. Hər kəs öz büdcəsinə uyğun olan hoteli seçir. İndi bir çoxları deyir ki, orda qiymətlər yüksəkdir. Amma mən belə hesab etmirəm. Bugünkü manatın məzənnəsinə uyğun olaraq daha da çox xaricdən gələn turistlər üçün uyğundur.

## “Müğənnilər arasındakı ziddiyyətlər qoy məhkəmə çərçivəsində həll olunsun”

***- Belə başa düşdük ki, siz “Şahdağ”ı daha çox xarici turistlərin axını üçün nəzərdə tutmusuz, nəinki orta statistik yerli turistlərin...***

- Xeyr. Mən belə bölgü aparmıram. Az öncə də dedim ki, orda hər turistin büdcəsinə uyğun olan, ulduzlarının sayına görə hotellər var. Dördulduzlu, beşulduzlu hotellər var ki, onların orta hesabla qiymətləri ölkədəki həmin səviyyəli hotellərdən nə yüksəkdir, nə də aşağı. Normal qaydadır. Ümumiyyətlə, qiymət tənzimləməsi daxili bazarda müəyyənləşdirilir. Dövlət tərəfindən “get, filan qiyməti qoy” demək mümkünsüzdür.

***- Amma Azərbaycanda qış turizminin bərbad durumda olması ilə bağlı rəylər də geniş yayılıb. Həm qiymət, həm də servis baxımdan...***

## “Sehrbaz deyiləm ki, bir günün içində hər şeyi düzəldim”

- Azərbaycanda, ümumiyyətlə, qış turizmi mədəniyyəti, ənənəsi olmamışdı. Bütün dünyada qış turizmi yay turizmindən bahadır. Bu, təbiidir. Çünki onun avadanlıqları, onlara sərf olunan elektrik enerjisi, kanatların gecə-gündüz işləməsi, süni qarın, göllərin yaradılması xərc tələb edir. Orda gündəlik xərclər daha çox olur, nəinki yayda günəşin altında, dənizdə, qumda yaradılan turizm obyektlərində. Ona görə də gözləmək lazım deyil ki, “Şahdağ”dakı qiymətlər yay turizm obyektlərindəkindən ucuz olacaq. Bu, reallıqdır.

***- Siz özünüz də zaman-zaman mediaya açıqlamalarınızda ölkəmizdə yay turizmi obyektlərinin də ürəkaçan olmadığını demisiz. Mətbuat da bunu faktlarla, rəqəmlərlə dəfələrlə araşdırma kimi işıqlandırıb.***

- Azərbaycanda turizm yüz faiz özəl sektordur. Azərbaycan dövlətinin fəaliyyəti Azərbaycan turizm məhsulunun bazara çıxarılması, onun populyarlaşdırılması, təkmilləşdirilməsi, kadr, xüsusi dövlət proqramının hazırlanması və bu sənayenin inkişafına təkan verməkdən ibarətdir. Mən qiymətləri formalaşdırmıram. Gedib orda hansısa hotel tikmirəm. Və bu, hamısı özəl sektorun işidir. Özəl sektorun sərmayəçisi qoyur sərmayəsini və bunun müqabilində öz gəlirini əldə etməlidir.

***- Hər halda, dövlətin hər hansı formada müdaxiləsi olmalıdır.***

- Dövlətin müdaxiləsi yalnız regional proqramların işlənməsi, burda xidmətlərin səviyyəsinə nəzarət, təhlükəsizliyin təminatı, lazımsız müdaxilələrin aradan qaldırılması istiqamətində olmalıdır. Bu istiqamətlərdə də dövlət tərəfindən işlər görülür. Regional inkişaf proqramları, cənab prezidentin turizmə verdiyi xüsusi diqqət - bunlar hamısı əyani sübutdur. Bu yaxınlarda bir neçə önəmli qərarlar da verilib. Vizaların sadələşdirilməsi də buna misaldır. Bu, bir prosesdir. Azərbaycan turizm sahəsində özünə layiqli bir yer tutmaqdadır. Biz beynəlxalq səviyyədə çox yüksək qəbul olunuruq. Çünki ölkəmiz turizm sahəsində çox düzgün işlər görür. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunur. Amma heç kim gözləməsin ki, hər şey bir günün içində düzələcək. Sehrbaz deyiləm ki, bir gün içində hər şeyi düzəldim. Proqram olmalıdır, bunlar vaxt alır. İnsanlar bunu anlamalıdır, kadr hazırlığı üçün də müəyyən dövr lazımdır. Azərbaycan dövləti də bunun üçün lazımi işlər görür. Amma tamamlanmamış hansısa problemlər, nöqsanlar varsa, bununla da razılaşıram. Çünki reallıqdır. Bu işlərin hansınınsa zəif görülməsini də nəzarətsizliyin ucbatından buraxılmış səhvlər kimi qəbul edə bilərəm. Amma demək ki, Azərbaycanda turizm yoxdur, inkişaf etməyib, bu, ədalətsizlikdir. Çünki yay-qış demədən bütün hotellər doludur, insanlar istirahəti ölkə daxilində edir. Yayda bütün hotellərin 90 faiz dolu olması bir faktdır və ciddi göstəricidir.

## “Mən dövlət adamıyam, çalışıram mənəvi cizgiləri heç vaxt keçməyim”

***- Amma rəylər var ki, yay aylarında xüsusən Türkiyənin turizm şəhərlərinə bilet qiymətlərinin artırılması yerli turizmin süni şəkildə inkişafına xidmət göstərir. Süni rəqabətin yaradılması bahasına bunun edilməsi qənaəti formalaşıb.***

- Mən belə deməzdim. Bu, iki tərəfə də təsir edir. Yəni təkcə Azərbaycandan gedənlərə yox, Azərbaycana gələnlərə də. Bizim belə marağımız yoxdur ki, camaat gəlməsin. Əksinə, istəyərdik ki, Azərbaycana daha ucuz uçuşlar olsun və bu istiqamətdə işlər gedir.

***- Hazırda “Şahdağ”a turist axını varmı?***

- Mən bazar günü “Şahdağ”da oldum, orda 40-a qədər avtobus gördüm. Bu, müstəqil turizm şirkətləridir, "Şahdağ"ın rəhbərliyi ilə müqavilə bağlayırlar, müqavilə əsasında turistləri gətirirlər. Çox ucuz qiymətə. Avtobus bir qiymət verir, turistlərin daşınması, ora gətirilməsi güzəştli qiymətlərlə başa gəlir. Biz görürük ki, ora nə qədər turist gəlir və hamısı da istirahət edir. Hərənin öz cibinə uyğun istirahətini təşkil etmək imkanını biz yaradırıq. Sözsüz ki, avtobusla gələn turistləri biz heç beşulduzlu hoteldə yerləşdirməyi təklif etmirik. Onların proqramına bu, daxil deyil.

***- Əbülfəs müəllim, müğənnilər arasındakı qalmaqallar, onların əməlləri artıq şou-biznesin sərhədlərini aşıb, kriminal məcraya keçib...***

- Şou-biznesin sərhədlərini aşıb? Ona görə də sual mənə deyil. Hüquq-mühafizə orqanlarının məşğul olduğu məsələdir. Əfsuslar olsun ki, xalq artistləri arasındakı münaqişə hüquq-mühafizə orqanlarının araşdırması səviyyəsinə çıxıb.

***- Amma bu məqamda ictimaiyyəti, jurnalistləri düşündürən əsas məqam budur ki, niyə İlhamə Quliyevaya bu qədər meydan, imtiyaz verilir? Bu limitsiz imkanların nəticəsi hazırda göz qabağındadır...***

- Kim ona meydan verir?

***- Efirdə az qala hər gün meydan oxuyur. Az qalır desin ki, bu ölkənin mədəniyyət sahəsinə də mən nəzarət, rəhbərlik edirəm...***

- Özünüz oxumursuzmu ki, gündə mənim haqqımda nə qədər yalan xəbər yayılır? Tutaq ki, biri gəlir mənim yanıma, qəbul edirəm. Sabah qəbulumdan çıxıb deyir ki, nazirin yanında olmuşam, mənə filan ad verəcək, filan şeyi edəcəm... Bu, insanın təbiətindən asılıdır. Heç kəs mənəvi çərçivələrdən çıxmamalıdır. Əgər hüquq-mühafizə orqanları bu gün bu məsələ ilə məşğuldursa, deməli, onların nəzarətindədir. Onun xalq artisti olub-olmaması araşdırmaya heç bir təsir göstərməməlidir. Qanun qarşısında hamı bərabər olmalıdır.

## “...Biri gəlir yanıma, qəbul edirəm. Sabah gedib deyir ki, nazir mənə filan ad verəcək, filan şeyi edəcəm...”

***- İcazənizlə bir müqayisə aparaq. Məsələn, sizə mədhiyyə yazan bir şairi cəzalandırdız...***

- O, mənə heç vaxt mədhiyyə oxumayıb...

***- İlhamə Quliyevanın vəzifəli şəxslərlə bağlı dediyi mədhiyyələr də tez-tez efirdən səslənir. Müasir düşüncəli insan kimi, yəqin ki, bu, sizə də xoş gəlmir. Ən azı bir tövsiyə xarakterli nələrsə demək olmazdı ki, “İlhamə xanım, bu bayağı danışıqları, lazımsız tərifləri azaldın, cəmiyyətə xoş deyil”...***

- Sizin fikrinizlə razıyam ki, insanlar başqalarının adlarını özlərinə arxa göstərmək niyyəti ilə çəkməməlidirlər. Bu, düzgün deyil. Heç kəs heç kəsin adına istinad edib, özünə imtiyaz qazanmamalıdır. Qaldı ki, tövsiyə verilməsinə, mən tövsiyəmi öz çıxışlarımda, nazirliyin fəaliyyətində, dövlət orqanlarının onlarla əlaqələrində hər dəfə, gündəlik verirəm. Bu, mətbuat üçün deyil, normal iş qaydasıdır. Burda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hansısa inzibati ölçü götürülməsi məntiqə və qanuna sığışmır. Artıq hüquq-mühafizə orqanları bununla məşğuldur. Onların *(İlhamə Quliyeva ilə Aygün Kazımovanı nəzərdə tutur-red.)* arasındakı ziddiyyətlər qoy məhkəmə çərçivəsində həll olunsun. Qaldı ki, mənim şəxsi münasibətimə, təəssüflənirəm ki, bizim tanınmış müğənnilər, vaxtilə Azərbaycan musiqisinin parlaq səhifələrini təşkil etmiş insanlar arasında belə ziddiyyətlər mövcuddur. Yaxşı olardı ki, onlar yeni yaradıcılıq uğurları üçün çalışaydılar, yeni, istedadlı gənc müğənnilərin yetişdirilməsi ilə məşğul olaydılar, onlar üçün yeni sənətə yol açaydılar. Amma onlar öz fəaliyyəti ilə bunun əksini edirlər. Son nəticədə də gənclərin bu sahəyə marağının yaranmasına yox, marağının ölməsinə nail olurlar. Bu, mənim şəxsi münasibətimdir.

**❑ Azər AYXAN, Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016



# Biz niyə merləri seçməyək?

Hüseynbala SƏLİMOV

**Bəli, Azərbaycan hökumətinin bu vaxta qədər Avropanın tövsiyəsi ilə yaratdığı bir-iki qurum, sosial institut var ki, onlardan biri də bələdiyyələrdir. Amma neçə illərdir ki, bu qurumlarla bağlı müzakirələr bitib-tükənmir, onları gah tamam bağlamağı, gah da ciddi şəkildə məhdudlaşdırmağı təklif edirlər. Hökumət də özünün peşmançılığını gizlətmir, çünki onu da özəlləşdirərək bir partiyanın nəzarəti altına keçirsə də, hələ də bu qurumları özününkü hesab etmir...**

Doğrusu, bu mövzuda yazmağı elə də sevmirəm, çünki əvvəllər xeyli yazmışam və hətta təkliflər etməyə də cəhd etmişəm. Sadəcə, mümkün deyil.

Bəlkə də digərləri də əsas problemi görürlər, amma heç vaxt onun üzərinə getmirlər, çünki bu, korporativ siyasi maraqlara mane olur...

Bu günlərdə Milli Məclisdə də müzakirələr oldu. Amma mən həmin müzakirələrdən özüm üçün heç nə yəqinləşdirə bilmədim...

Nədir bizim bələdiyyələrin problemi? Bəri başdan deyim ki, əvvəlcə bu qurumların fəlsəfəsini qəbul etmək lazımdır. O, fəlsəfə qəbul edilməyincə bələdiyyələrin problemi həll olunmayacaq, onlar bizdən, biz də onlardan gileyli olacağıq...

Qərəz, Avropada idarəetmə fəlsəfəsi subsidarlıq prinsipinə söykənir - yerlərin həll edə biləcəyi bütün problemlər onların sərəncamına verilir.

Bizdə məhz bunu qəbul etmək istəmirlər. Ən yaxşı halda istəyirik ki, həm bələdiyyələrin, həm də yerli icra hakimiyyətlərinin səlahiyyətləri böyük olsun. Bu isə mümkün deyil. Onlardan yalnız birinin səlahiyyəti böyük ola bilər. Ona görə ki, bütövlükdə yerlərə verilən səlahiyyətlərin bir məcmusu var - əgər cəm dəyişmirsə, yalnız toplananlarla variasiya etmək, onları artırıb-azaltmaq olar...

Daha bir ciddi detal isə bilirsiniz nədir? Ölkə həyatının heç bir sahəsində sanballı bir strategiya yoxdur, xırda taktiki addımlar var, amma strateji xətt görünmür. Yalnız iqtisadiyyatda nəsə etməyə cəhd edirlər. Bunu da ona görə edirlər ki, məcburdurlar - əhali, insanlar yaşamalıdır... İdarəetmə və siyasi islahatlarla bağlı heç bir strategiya yoxdur...

Məsələn, yerlərdə niyə əsl, bütün dünyada olduğu kimi merlər olmasın? Və niyə görə biz onları seçməyək? Bu, ölkəni sarsıda və mərkəzi hakimiyyətə hansısa problem yarada bilərmi?

Gözümüzün önündə Türkiyə var! Görün, orada bələdiyyə seçkilərinə nə qədər böyük maraq var! Ölkə bundan üzüntü keçirirmi? Hansısa problem yaranırmı? Bəli, problem o vaxt yarana bilir ki, heç kim öz çərçivələrini görmür, heç kim bu çərçivələr hüdudlarında qalmaq istəmir...

Bunlar qəbul edilməyincə, insanlar bələdiyyələri tanımamaqda davam edəcəklər. Həm də bir məsələni də qeyd etmək lazımdır - bu tanımaq məsələsi ilə bağlı. Guya bizim insanların əksəriyyəti özlərinin Milli Məclisdəki deputatlarını tanıyırlarmı? İanın ki, tanımırlar. Səbəbini də özünüz məndən də yaxşı bilirsiniz...

Tanımaq məsələsinin başqa bir tərəfi də var ki, tanımalı bir şey yoxdur. İndi bələdiyyələr yerli icra hakimiyyətlərinin səlahiyyətində olan onlarla strukturlardan biridir. Amma belə olmamalı idi. Niyə belə olur, bu da bir daha aydındır...

Mənim yadıma bir detal düşür. Bir neçə il bundan əvvəl Polşa bələdiyyələrinin təcrübəsini öyrənmək üçün bu ölkəyə yollanmışdıq. Deyim ki, orada da hər şey təzə başlayırdı, amma optimizm vardı. Elə bir optimizm ki, hətta mənim özümə də sirayət etdi...

Hətta ağlımdan bizim bələdiyyə seçkilərində iştirak etmək arzusu keçdi. Niyə də yox? Bir çoxlarının böyük siyasətə yolunda bələdiyyələr böyük rol oynamışdı. Amma tez bir zamanda gördüm ki, bizdə bu, mümkün deyil. Ona görə ki, bələdiyyələrə səlahiyyət verən yoxdur. Üstəlik, hakimiyyət bu qədər səlahiyyətsiz, faktiki olaraq, ölü qurumlara belə seçkiləri öz nəzarətində saxlayır, onu demək olar ki, bir partiyanın qurumuna çevirib.

Bir neçə il öncə müxalifət partiyaları bələdiyyələrə maraq göstərdilər. Reaksiya necə oldu? Dərhal hakim partiya qayıtdı ki, bəs bunlar Gürcüstanın təcrübəsindən istifadə etmək istəyirlər - orada M.Saakaşvili bələdiyyələrdən gəlmişdi...

Bunu eşidəndən sonra müxalifətçilər kor-peşman evlərinə çəkildilər. Başa düşdülər ki, bələdiyyə seçkilərindən də nəsə gözləmək lazım deyil - ona görə ki, hətta onların da üstündə hakimiyyətin gözü var...

# Deputatlardan "kiçik padşahlar"a və məhkəmə hakimiyyətinə sərt tənqid

**Fevralın 15-də Milli Məclisdə ( MM) parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi QHT-lərə Dövlət Dəstəyi Şurası ilə birgə "İctimai nəzarət haqqında" yeni qanun layihəsinin müzakirəsinə həsr olunmuş dinləmələr keçirib.**

**QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev** çıxışı zamanı deyib ki, ictimai şuralarla bağlı həm müsbət, həm də mənfi təcrübə var. Onun sözlərinə görə, "İctimai iştirakçılıq haqqında" qanunun qəbulundan sonra yaradılan ictimai şuralar ötən dövr ərzində o qədər də effektiv fəaliyyət göstərə bilməyiblər: "Düzdür, Ədliyyə Nazirliyinin tərkibindəki Penitensiar İctimai Komitə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yaradılan İctimai Şura və bəzi bir-iki qurumdakı ictimai şuralar müsbət, effektli fəaliyyətləri ilə seçilirlər, fərqlənirlər, amma əksəriyyət o qədər müsbət təcrübəyə malik deyillər. Ona görə də "ictimai nəzarət haqqında" yeni qanununun qəbulundan sonra ictimai nəzarəti həyata keçirəcək ictimai şuralar mərkəzi və yerli icra hakimiyyətlərindən kənarda yaradılmalı və tam müstəqil şəkildə fəaliyyət göstərməlidirlər" - deyə, o, sözlərinə əlavə edib.

"Əgər ictimai şuralar ictimai nəzarəti həyata keçirəcəklərsə, onlar heç bir halda mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, xüsusilə də özlərini "kiçik padşahlar" elan edən icra başçılarından, nazirlərdən asılı vəziyyətdə qalmamalıdırlar, onların təsirindən, nəzarətindən kənarda fəaliyyət göstərməlidirlər".

**Gün.az xəbər verir ki, bu fikirləri deputat Fəzail Ağamalı** söyləyib. Deputatın sözlərinə görə, yerli özünüidarəetmə orqanları olan bələdiyyələrlə bağlı acı təcrübə ortadadır. "Bildiyiniz kimi, ildən-ilə bələdiyyələrin səlahiyyətlərinin artırılmasına, bu yöndə ən müxtəlif qanunların qəbul olunmasına baxmayaraq, yerli və mərkəzi icra hakimiyyəti orqanlarından, icra başçılarından onlara qarşı təzyiqlər, təsirlər, müdaxilələr var. Yəni bu gün bələdiyyələrlə bağlı acı təcrübə ortadadır. Ona görə də hesab edirəm ki, ictimai nəzarəti həyata keçirəcək ictimai şuralar mərkəzi və yerli icra hakimiyyətlərinin tərkibində, onların müdaxiləsi ilə yaradılmamalıdır. İctimai şuralar gizli səsvermə yolu ilə seçilməli, formalaşdırılmalı və müstəqil şəkildə fəaliyyət göstərməlidirlər"- deyə, F.Ağamalı bildirib.

**Azərbaycanda məhkəmələrinin səlahiyyətlərinin genişləndirilməsinə, bütövlükdə məhkəmə hakimiyyəti institutuna hörmətin artırılmasına ehtiyac var. Bu fikirləri isə deputat Qüdrət Həsənquliyev dilə gətirib. Onun sözlərinə görə, bu gün təəssüflər olsun ki, Azərbaycan cəmiyyətində məhkəmələrə etibar çox azdır:** "Şəxsən mənim özümə dəfələrlə məhkəmələrlə bağlı şikayətlər daxil olub. Məsələn, mənə daxil olan son iki məhkəmə işi ilə bağlı şikayətdən bəlli olur ki, 7 ildir vətəndaşlar məhkəmələr tərəfindən get-gələ salınır. Bəzən insanlar hətta o həddə çatır ki, pul, rüşvət verib məmuru yoldan çıxarırlar, yəni təki məhkəmələrdə sürünməsinlər. Ona görə məhkəmələrə inamın, hörmətin artırılmasına ehtiyac var". **Deputat xatırladıb ki, bu gün ABŞ-da 950 adama bir nəfər vəkil düşür.** "Nisbətən bizə yaxın ölkələrdən biri olan Polşada 786 insana bir vəkil düşür. Bizdə isə 17 min insana bir vəkil düşür. Bu, həddindən artıq biabırçı bir rəqəmdir. Ona görə məhkəmələrin fəaliyyətində şəffaflığın, həmçinin vəkillərinin sayının artırılmasına ehtiyac var. Eyni zamanda da Andlılar Məhkəməsinə yenidən qayıdılması lazımdır".



**Azay Quliyev:**
"İctimai şuralar mərkəzi və yerli icra hakimiyyətlərindən kənarda yaradılmalı və tam müstəqil şəkildə fəaliyyət göstərməlidirlər"



**Fəzail Ağamalı:**
"Yerli və mərkəzi icra hakimiyyəti orqanlarından, icra başçılarından bələdiyyələrə qarşı təzyiqlər, təsirlər, müdaxilələr var"



**Qüdrət Həsənquliyev:**
"Son iki məhkəmə işi ilə bağlı şikayətdən bəlli olur ki, 7 ildir vətəndaşlar məhkəmələr tərəfindən get-gələ salınır"

❑ E.PAŞASOY

# Ölkənin qeyri-neft sektoru necə ilə dirçələ bilər?

## Ekspertlər uğurlu nəticə əldə etmək üçün təkliflər verir, ancaq...

**Neftin qiymətinin ucuzlaşması ölkədə qeyri-neft sektorunun inkişafı məsələsini aktuallaşdırıb. Ancaq əksər ekspertlər vurğulayırlar ki, qeyri-neft sektorunun inkişafı istiqamətində illər boyu heç bir iş görülməyib, ölkə bu yolda gecikib. Bir müddət əvvəl dövlət başçısı İlham Əliyev qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam da imzalayıb. Bəzi ekspertlər də qeyd edirlər ki, ölkədə düşünülmüş iqtisadi siyasət nəticəsində qeyri-neft sektorunun inkişafına gedən yolu qısaltmaq mümkündür. Əksər ekspertlər isə qeyri-neft sektorunun dirçəldilməsi üçün uzun illət tələb olunduğu qənaətindədirlər.**



**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, Azərbaycan bu sahədə çox gecikib: "Ancaq kənd təsərrüfatında daha tez nəticə əldə etmək olar. Amma məsələn, sənaye sahəsində işlər başlanandan bir neçə il gözləmək mümkündür və bunun üçün də münbit şərait olmalıdır. Tək qeyri-neft sektorunun inkişaf etdirmək istəyirik demək azdır. Münbit şərait olmalıdır, uzunmüddətli və ucuz kredit xətləri olmalıdır. Ucuz kreditlərə çıxış imkanları yaradılmalıdır. Xarici investorlar üçün şərait yaradılmalıdır ki, Gürcüstana deyil, məhz Azərbaycana investisiya qoysun. Orada olan şərait bizdən qat-qat yaxşıdır, investor bura niyə gəlsin axı? Bunları nəzərə alaraq, qeyri-neft sektorunda bəzi sahələrdə qısamüddətli perspektiv yaratmaq olar və ciddi nəticələr əldə etmək olar. Bəzi sahələr var ki, biz illərlə o sahələrə investisiya yatırmalıyıq ki, nəticəsini iki-üç ildən sonra, ortalama beş ildən sonra görmək mümkün olsun. Bəzi sahələr var ki, ümumiyyətlə, biz nə qədər çalışsaq da, onu inkişaf etdirə bilməyəcəyik və qeyri-neft sektorunun bu sahəsində inkişafa nail olmaq çox çətindir. Məsələn, yaxşı mobil telefon buraxa bilməyimiz inandırıcı görünmür. Yaxın zamanlarda yaxşı avtomobil istehsal edə bilməyəcəyik. Məişət avadanlığı istehsal edə bilməyəcəyik. Onu da nəzərə almaq lazımdır. Qeyri-neft sektorunun perspektivlərini inkişaf etdirmək lazımdır. Hələ görünən odur ki, bu sahədə ciddi işlənmiş proqram nə cəmiyyətə, nə ictimai müzakirələrə təqdim edilməyib".

Ekspert Rəşad Həsənov isə musavat.com-a bildirib ki, qeyri-neft sektorunun inkişafı qısamüddətli bir proses deyil: "Təbii ki, bu sahədə müəyyən nəticələr əldə etmək üçün zaman tələb olunur. Düşünürəm ki, əgər hökumət həqiqətən də səmimi mövqe ortaya qoyarsa, effektiv islahatlar həyata keçirilərsə, iqtisadiyyat liberallaşarsa, o cümlədən kənar müdaxilələr, gömrük məsələləri kimi sahələrdə həqiqətən gözlə görünən nəticələr əldə olunarsa, müəyyən nəticələr əldə etmək mümkündür. Qeyri-neft sektorunun potensialı güclüdür. Real inkişaf ehtiyatı yaranır. Bu məqsədlə gərək həqiqətən də hökumət bu məsələdə səmimi olduğunu ortaya qoysun. O fikirlə razı deyiləm ki, Azərbaycanda qeyri-neft sektorunun potensialı yoxdur. Bu potensal var. Sadəcə, investoru inandırmaq lazımdır ki, hökumət bundan sonra həqiqətən də dəyişib, əvvəlki yanaşma olmayacaq. Amma bu günə qədər atılan addımlar onu göstərir ki, bir çox hallarda görüntü yaradılır. Real olaraq addımlar atılmır. Hökumət real addımlar atarsa, 5 il müddətinə uğurlu nəticələr əldə etmək mümkündür".

❑ RÖYA






# Ümid Partiyasının Ali Məclisinin sessiyası keçirildi

## Partiya sədrinin yeni müavinləri təyin olundu

**13 fevral 2016-cı il tarixində Ümid Partiyası Ali Məclisinin növbəti sessiyası keçirildi.**

Ali Məclisin sədri Rafail Tağızadə gündəlikdə olan məsələləri Məclis üzvlərinin diqqətinə çatdırdı. Çıxış üçün **söz partiyanın sədri İqbal Ağazadəyə** verildi. Sədr ölkədəki ictimai - siyasi vəziyyət və partiyanın qarşısında duran vəzifələrlə bağlı geniş məruzə ilə çıxış etdi. Məruzəsində partiya sədri hakimiyyətin apardığı qüsurlu siyasətdən danışaraq bu hökumətin ölkəni böhrandan çıxara bilməyəcəyini qətiyyətlə qeyd etdi. Sədr həmçinin vurğuladı ki, hökumət ölkəni böhrandan çıxarmaq üçün nə edəcəyini bilmir: “Bunların böhranla bağlı heç bir proqramları yoxdur. Görünən odur ki, hökumət bir az da təşviş içindədir. Böhrandan çıxmaqla bağlı hətta prezident tərəfindən imzalanan sərəncamlar bir ay sonra dəyişdirilir. Konkret proqrama söykənən ardıcıl və davamlı iş aparılmır”.

İqbal Ağazadə böhrandan çıxmaq üçün Ümid Partiyası tərəfdən hakimiyyətə təqdim edilmiş antiböhran proqramı haqqında da məclis üzvlərinə məlumat verdi. Sədr həmçinin dünyada iqtisadi böhranın təkcə iqtisadi islahatlarla qarşısının alınma təcrübəsinin olmadığını vurğuladı, böhrandan çıxış yollarının siyasi islahatlardan keçdiyini qeyd etdi. O, son aylarda baş verən hadisələri təhlil etdi və ölkədəki sosial-iqtisadi vəziyyətin mart-aprel aylarında daha da ağırlaşacağı proqnozunun qaçılmaz olduğunu vurğuladı. Belə bir vəziyyətdə partiya üzvlərinin daha da məsuliyyətli olmalarını xatırladan sədr, təşkilatlanma və təbliğat işinin gücləndirilməsilə bağlı rayon şöbə sədrlərinə öz tövsiyələrini verdi.

**Məclis zamanı təşkilatı məsələlərə baxıldı.**

**Öncə partiya sədrinin təyin etdiyi yeni müavinlər məclisə təqdim olundu.**

*Həmin şəxslər aşağıdakılardır:*

**Tamilla Qulami** - Ümid Partiyası sədrinin Təbliğat və Təşviqat məsələləri üzrə müavini; Xanlar Abbasov - Gənclərlə iş üzrə sədr müavini;

**Qədir Aslanov** - İnsan hüquqları və əsas azadlıqların qorunması üzrə sədr müavini;

**İsmayıl Mirzəcanov** - İnzibati ərazi və Bələdiyyə məsələləri üzrə sədr müavini;

**Həcər Abbaslı** - Gender Bərabərliyi üzrə sədr müavini.

Ümid Partiyası sədrinin təyinatları Ali Məclisdə təsdiq olundu. Tamilla Famil qızı Qulami partiya sədrinin müavini təyin edildiyi üçün Ali Məclis sədrinin müavinliyinə İbadova Günel Mahmud qızı seçildi.

**Yeni müavinləri tanıyaq...**

**Tamilla Famil qızı Qulami** - 1 oktyabr 1983-cü ildə Tərtərdə doğulub. Orta təhsilini Tərtər şəhər 6 saylı orta məktəbdə başlayıb, Bakı şəhəri Xətai rayonu 88 saylı orta məktəbdə davam etdirib. 2001-2005-ci illər ərzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Kulturologiya” fakültəsinin bakalavr, 2008-2010-ci ildə “Muzeyşünaslıq-maddi və mədəni abidələrin qorunması və bərpası” ixtisası üzrə magistratura pilləsini bitirib. Dövri mətbuatda ədəbi, ictimai-siyasi yazıları dərc olunur.

2008-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi işçi, 2010-2014-cü illərdə Güney Azərbaycan Televiziyasında “Günün səsi” xəbərlər informasiya buraxılışının aparıcısı, 2014-cü ildən “125-lər Siyasi Klubu”nda sədr müavini, Azərbaycan Ümid Partiyası “Beynəlxalq əlaqələr” şöbəsinin müdiri kimi fəaliyyətə başlayıb. 2015-ci ilin aprel ayının 13-ündə partiyanın Ali Məclis Sədrinin müavini vəzifəsinə seçilib. Azərbaycan-Avropa Hərəkatının İdarə Heyətinin üzvüdür. Kanal 13-də “Tamilla Qulami ilə güneydən” proqramının qurucusu və aparıcısıdır. 23 dekabr 2014-cü il Azərbaycanda keçirilən Bələdiyyə Seçkilərində Ümid Partiyasından namizədliyini irəli sürüb, Binəqədi Rayonu Binəqədi Bələdiyyəsinə seçilib. “Yerli Ekologiyalar üzrə Daimi Komissiya”nın üzvüdür. 2006-cı ildən beynəlxalq tədbirlərdə iştirak edir. 2014-cü ildə Qazaxıstanın Çimkənd şəhərində keçirilən “Türk xalqlarının Qurultayı”, Turan şəhərciyinin açılışında iştirak edib. 2014-cü ilin 13-15 oktyabrında Litva Respublikasının ev sahibliyi ilə Avropa Birliyi Şərq Tərəfdaşlığı çərçivəsində III “Gənc Liderlərin Akademiyası”nda Siyasətdə gənclərin iştirakı: İmkanlar və perspektivlər" forumunda “Cənubi Qafqaz Birliyi” mövzusuyla çıxış edib, Beynəlxalq Diploma layiq görülüb.

Ümid Partiyası sədrinin 2 fevral sərəncamına əsasən Tamilla Qulami Təbliğat və Təşviqat məsələləri üzrə partiya sədrinin müavini təyin olunub

**Xanlar Nüsrət oğlu Abbasov** - 26 may 1983-cü ildə Füzuli rayonunun Merdinli kəndində doğulub. Orta məktəbi Füzuli rayonu Merdinli Kənd Orta Məktəbində başlamış, Bakı şəhəri Binəqədi rayonu 283 saylı və Nərimanov rayonu Alı Mustafayev adına 202 saylı Orta Məktəbdə davam etdirib. 2001-2007-ci illərdə Azərbaycan Dövlət İqtisad Universiteti “Biznesin təşkili və idarəedilməsi” fakültəsini bitirib. 2002-ci ildən Ümid Partiyasının üzvü olaraq siyasi fəaliyyətlə məşğuldur. Ümid Partiyası 2009—2011-ci illərdə Gənclər Təşkilatının sədri olub. ATƏT-in, NDI-ın, IRI-ın, “Liderlik”, “Təşkilat quruculuğu”, “Gənc siyasi liderlər” mövzusunda dəfələrlə təlimlərdə iştirak edib. 2011-ci ildə təsis edilmiş “Gənclərin Hüquqlarının müdafiəsi Komitəsi”nin həmtəsisçilərindəndir.

9 Saylı Binəqədi İkinci Seçki Dairəsinin üzvü olub.

Ümid Partiyası sədrinin imzaladığı sərəncama əsasən fevral ayının 4-də Xanlar Nüsrət oğlu Abbasov Gənclərlə iş üzrə sədr müavini təyin olunub.

**Qədir Xıdır oğlu Aslanov** - 8 noyabr 1987-ci ildə Cəbrayıl rayonu, Nüzgar kəndində doğulub. Orta təhsilini 1994-cü ildə 78 nömrəli orta məktəbdə başlayıb, 2005-ci ildə Nizami rayonunda yerləşən 238 nömrəli məktəbin 11-ci sinfini bitirib. Bakı Dövlət Universitetinin “Sosial Elmlər və Psixologiya” fakültəsinin “Politologiya” ixtisasına daxil olub. 2008-2009-cu illərdə ABŞ-ın Los-Anceles şəhərində Los-Anceles Valley Kollecində “Beynəlxalq Biznes” ixtisası üzrə kurs keçib. 2005-ci ildən bir sıra ictimai təşkilatların işində təsisçi və üzv olaraq iştirak edib. Beynəlxalq tədbirlərdə Azərbaycanın milli maraqları məsələsi ilə əlaqədar çıxışlar edib.

Qədir Aslanov Ümid Partiyasında Seçki və təşviqat məsələləri üzrə şöbə müdiri olaraq çalışıb. Ümid Partiyası sədrinin imzaladığı sərəncama əsasən fevral ayının 4-də Qədir Xıdır oğlu Aslanov İnsan hüquqları və əsas azadlıqların qorunması üzrə sədr müavini təyin olunub.

**İsmayıl Mirzakir oğlu Mirzəcanov** - 1987-ci il 20 sentyabr tarixində Lənkəran şəhərində anadan olub. Orta təhsilini Lənkəran Şəhər Xarici Dillər təmayüllü Gimnaziyada alıb, 7-8-ci sinifdən Lənkəran Özəl Türk Liseyində davam edib, 9-10-11-ci sinifləri C.Naxçıvanski adına hərbi liseydə başa vurub. 2005-ci ildə Xəzər Universitetinin “Sosial və humanitar elmlər” fakültəsində “Tərcüməçilik” ixtisası üzrə təhsil alıb. Təhsilini Amerika Birləşmiş Ştatları Pensilvaniya Ştatı Filadelfiya şəhərində Dreksel Universitetində davam etdirib. Hal-hazırda Ukraynanın Kiyev şəhərində Regionlararası Personalın İdarəedilməsi Akademiyası “Beynəlxalq əlaqələr” ixtisası üzrə təhsil alır.

Ümid Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışıb. 4 fevral Ümid Partiyası sədrinin sərəncamı ilə İnzibati ərazi və Bələdiyyə məsələləri üzrə partiyanın sədr müavini təyin edilib

**Həcər Şamil qızı Abbaslı** - 1989-ci il iyunun 15-də Kəlbəcər rayonunun Bağırlı kəndində anadan olub. 2013-ci ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. Tələbəlik və sonrakı dövrlərdə jurnalistika sahəsində fəaliyyət göstərib. Üç ildən artıq müddətə müxtəlif QHT-lərlə əməkdaşlıq edib. İnsan hüquqları və seçki sahəsində müxtəlif layihələrin icrasında iştirak edib. Həcər Abbaslı Gender Bərabərliyi şöbəsinin müdiri vəzifəsini icra edirdi.

Ümid Partiyası sədrinin 10 fevral sərəncamına əsasən partiya sədrinin Gender Bərabərliyi üzrə müavini təyin olunub.

**Günel İbadova Mahmud qızı** - 1981-ci ildə Bakıda anadan olub. Orta təhsilini 201 saylı orta məktəbdə alıb. Odlar Yurdu Universitetinin “Hüquq” fakültəsinin tələbəsidir. Dövri mətbuatda bədii və sosial yazıları ilə tanınır. Çoxsaylı hekayə və esselerin müəllifidir. 2013-cü ildən etibarən Ümid Partiyasının üzvüdür. Partiyada Sosial və Humanitar məsələlər üzrə şöbə müdiri, Ali Məclisin katibi kimi çalışıb. Siyasi karyerasında ilk uğuru 2014-cü ildə bələdiyyə seçkilərində qalibiyyəti və 2015-ci il parlament seçkilərində 92 saylı Zərdab seçki dairəsində namizədliyinin qeydə alınması olub. Seçkilərdə vətəndaşların aktiv görüşlərdə etmad qazanıb səs toplasa da, saxtakarlıq nəticəsində qalibiyyəti qeydə alınmayıb.

**Partiyanın Ali Məclisinin 23-cü sessiyasında 13 fevral tarixində partiyanın Ali Məclis tərəfindən Ali Məclisin sədr müavini seçilib.**













**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

# Etirazların hasarlanması tədbirləri



Zamin HACI
zaminhaci@gmail.com

**Böhran, devalvasiya başlayandan bəri yapistlər guya yeni idarəçilik üsullarına keçiblər, məmurlar töküləşüb rayonların canına, camaatla görüşür, yalan-palan vədlər verib insanları müvəqqəti də olsa sakitləşdirməyə çalışırlar. Bəzən bu, absurd formalar alır, örnək üçün son 10 gündə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun Tərtər və Yardımlı rayonlarına, səhiyyə naziri Şirəliyevin Qazax rayonuna səfərlərini göstərə bilərik. Məsələ ondadır ki, qazaxlılar xəstələnəndə heç uzaq Bakıya və İrana da getmirlər, sərhədi aşıb Gürcüstanın səhiyyə obyektlərinə üz tuturlar. Statistika sədrinin görüşə gələn vətəndaşlara yağlı rəqəm plovu yedizdirəcəyi də şübhə doğurmur, çünki adamın rəqəmdən başqa bir məhsulu yoxdur. Ümumiyyətlə, "Statkom"a nədən şikayətlənmək olar ki? Niyə yalançı rəqəmlər toplayıblar, bundanmı? Obyekti, müəssisəsi də yoxdur iş versin.**

Fevralın 10-da Şirvanda görüşə gedən müdafiə sənayesi naziri Yavər Camalovun sakitləşdirmə həbləri heç beş gün də təsir eləmədi, dünən yerli camaat şəhər hakimiyyət orqanları önünə toplaşıb iş istəyirmişlər. Ağdamda isə məşğulluq mərkəzi işsizlər üçün təyin elədiyi əmək yarmarkasını təxirə salıb, bu da insanlarda narazılıq yaradıb.

Belə baxanda mərkəzi də qınamaq olmaz, məşğul olmağa iş yeri yoxdursa, obyekt, fabrik, sənaye, kənd təsərrüfatı və sairə yoxdursa, müraciət edənə işi hardan tapıb versin? Sadəcə, vaxtı ötürmək, yola vermək, gopa basıb bir az da mərkəzi hakimiyyətin ömrünü uzatmaq lazımdır. Yapistlərin regional "sosial siyasətinin" yalnız bu izahı var.

Fevralın əvvəlində fərmanı verilən Apelyasiya Şuraları da belə vaxt öldürmək siyasətinin tərkib hissəsidir. Gülünc bir tədbirdir. Təsəvvür edin, vətəndaş dövlət orqanlarından narazılığını, şikayətini elə həmin orqanların özündə yaradılan apelyasiya şuralarında həll etməlidir. Normal dövlətdə belə narazılıq məhkəmə, qanun yolu ilə həll edilir. Bizdə isə qanun yoxdur. Bəs nə etməli? Süründürmək lazımdır! Qoy vətəndaş, misal üçün, Vergilər Nazirliyindən şikayətini elə o nazirlikdəki Apelyasiya Şurasına eləsin, bir müddət orda baxılsın, təzədən "yerində tədbir görülməsi üçün" idarəyə qaytarılsın, sonra vətəndaş narazı qalıb yenə şikayət eləsin və sairə və ilaxır. Vətəndaşı top kimi oynadırsan, sonra da Allah kərimdir, yaz gələr, yonca bitər, ya da o vaxta kimi ya xan ölər, ya eşşək...

Vətəndaşların dərdinə-sərinə münasibətin başqa bir örnəyinə baxın. 12 fevralda türmədə 23 yaşlı məhbus ölüb, qohumları onun döyülüb öldürüldüyünü bildirir. "Yeni Müsavat" bu haqda yazıb. Sonra qəzetin yazıya düzəliş dərc elədiyini gördüm. Sitat: "Penitensiar Xidmətin mətbuat xidmətinin rəhbəri Yaşar İsakov musavat.com-la əlaqə saxlayıb və məhkumun ölümü ilə bağlı açıqlama verəcəyini demədiyini, müxbirimizin onu yanlış anladığını bildirib".

İndi bunu belə anlamaq lazımdır: "Açıqlama-zad vermirik, vermək fikrimiz də yoxdur, adımızdan yalan yaymayın, camaat elə bilər Norveçdə-zadda yaşayır, harınlayar". Yoxsa bir mətbuat xidməti rəhbəri öz qanuni vəzifəsini niyə təkzib eləsin ki? Adam buna görə maaş alır ey! Bəlkə biz Yaşar müəllimdən "Barselona"-"Real" oyununa münasibət öyrənək, ya da Aygünlə İlhamənin münaqişəsində Elza xanımın tutduğu mövqedən danışsın?

Bir neçə gün qabaq iqtisadçı ekspert Qubad İbadoğlu yazmışdı: "Görəsən, İqtisadiyyat Nazirliyinin "Strateji proqnozlaşdırma və planlaşdırma", Maliyyə Nazirliyinin "Makroiqtisadi proqnozlaşdırma və iqtisadi təhlil" şöbələri , Dövlət Neft Fondunun "Büdcə proqnozlaşdırma və layihələr" departamenti, Dövlət Neft Şirkətinin Strateji inkişaf üzrə vitse-prezidenti hansı işlə məşğul olub, gələcək strategiyalarını nəyin əsasında qurublar?"

Mən yalnız bu sualı oxuyanda bildim ki, bizdə belə gülməşəkər idarələr var imiş. Lap klassikaya dönmüş filmimizdə deyilən kimi: "Bunlara nə ad vermək olar? Tüfeyli, qrabitel..."

# Ərdoğanın Bakı səfəri öncəsi Ankaradan Kremlə ağır ittiham



# Əhməd Davudoğlu Kiyevdə Azərbaycana Rusiya təhlükəsindən danışdı - şok xəbərdarlıq

## Baş nazir "Rusiya Gürcüstanın, Ukraynanın və Suriyanın ərazi bütövlüyünü pozub, indi də Azərbaycanın ərazi bütövlüyü təhlükədədir", "Krım Ukraynanın ayrılmaz hissəsidir" deyib və Krım türklərinin lideri ilə nümayişkaranə şəkildə bir araya gəlib; Moskvaya mesajların hədəfi...

**Türkiyə ilə Rusiya arasında gərginlik qalmaqda və artmaqdadır. Suriya böhranı fonunda kəskinləşən, Kremlin bölgədə Türkiyə əleyhinə separatçı kürd təşkilatları və birləşmələrini fəal dəstəkləməsinin arxınca Ankaranın bu birləşmələrə hərbi zərbələr endirməsi fonunda iki dövlətin Suriyada toqquşma ehtimalının güclənməsi şübhəsiz ki, vəziyyətin ağırlaşmasından xəbər verir.**

Son proseslər həm də qardaş ölkənin prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan səfəri öncəsi müşahidə edilməsi ilə diqqət çəkməkdədir. Səfər ən əvvəl bu proseslərin kulminasiya nöqtəsinə çatıb-çatmadığına aydınlıq gəlməsi baxımından önəm daşıya bilər. Hələlik isə iki böyük dövlət arasında təbliğat savaşı da tam gücü ilə gedir.

O da məntiqlidir ki, Kremlin Suriyada Türkiyə əleyhinə hərəkətləri, separatçılığı dəstəkləməsi qarşılığında Ankara da digər adekvat addımlar atmaqdadır. Türkiyə baş naziri Əhməd Davudoğlunun Ukrayna səfəri, səfər çərçivəsində dünən orada verilən açıqlamalar, Rusiya ilə faktiki, müharibə vəziyyətində olan Kiyevə qardaş dövlətin açıq dəstək ifadə eləməsi bu qəbildəndir.

***

**"Türkiyə Krımı Ukraynanın ayrılmaz tərkib hissəsi hesab edir". Bunu Əhməd Davudoğlu ukraynalı həmkarı Arseni Yatsenyukla görüşdə bildirib.** "Bizim üçün Ukraynanın ərazi bütövlüyü və müstəqilliyi təməl dəyərdir, ona görə də biz Krımı Ukraynanın tərkib hissəsi sayırıq və Sovet İttifaqının dağılmasından sonra üzləşdiyi çətinliklərin həllində Ukraynanı dəstəkləyirik", - deyə Davudoğlu bəyan edib.

**Baş nazir həmçinin Ukrayna ilə Türkiyə arasında azad ticarət zonasının yaradılması haqqında saziş imzalamağa hazır olduqlarını söyləyib.** "Biz Ukrayna ilə münasibətləri daha yüksək səviyyəyə qaldırmağa hazırıq" - qeyd edib o.

Sözsüz ki, Ukrayna üçün belə ağır dönəmdə Ankaranın Kiyevə siyasi dəstəyi daha böyük dəyərdədir. Xüsusən də Türkiyənin Krım məsələsində Ukraynanı qeyd-şərtsiz müdafiə eləməsi və bunu da baş nazirin Rusiyanın "qulağının dibində", nümayişkaranə şəkildə bəyan eləməsi ikiqat əhəmiyyət daşıyır.

**"Rusiya Gürcüstanın, Ukraynanın və Suriyanın ərazi bütövlüyünü pozub, indi də Azərbaycanın ərazi bütövlüyü təhlükə altındadır". Ukrayna mediasının məlumatına görə, bunu da baş nazir Davudoğlu Kiyevdə ukraynalı həmkarı ilə keçirdiyi mətbuat konfransında bəyan edib. Onun sözlərinə görə, Rusiyanın yeni siyasət konsepsiyası - ekspansionizmin və aqressivliyin davamıdır.**

"Abxaziyadan başlanan situasiya Krımda davam edir. Hazırda üç ölkə var ki, onların ərazi bütövlüyünü Rusiya pozub - Gürcüstan, Ukrayna, Suriya. Rusiyanın kömək elədiyi Ermənistanın davranışı üzündən Azərbaycanın ərazi bütövlüyü də indi təhlükədədir. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi Rusiyanın dəstəyi ilə baş verib" - əlavə edib Davudoğlu. *(Qeyd edək ki, bir sıra Azərbaycan KİV-lərində baş nazirin Rusiya ilə bağlı sərt fikirləri bizə bəlli olmayan səbəblərdən yumşaldılıb - S.S.)*

**Türkiyə baş nazirinin qənaətincə, Rusiyanın Ukraynadakı əməllərinə beynəlxalq aləm lazımi reaksiyanı versəydi, Rusiya ola bilsin, Suriyaya girməyə cəsarət etməzdi:** "Bu gün Rusiyanın istər Ukraynaya qarşı yol verdiyi, istərsə də Suriyada ortaya qoyduğu aqressiv siyasətə qarşı Ukrayna ilə ortaq mövqedəyik. Ukrayna təkcə bizə qonşu olan ölkə deyil, həm də strateji ortağımızdır. Türkiyə Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir və Krımın ilhaqını rədd edir. Krım tatarların ana yurdudur. 1944-cü ildə zülmə məruz qalaraq torpaqlarından deportasiya edilən tatarların hüquqlarını müdafiə etməkdən məmnunluq duyuruq. Krım Ukraynanın bir hissəsidir".

**Ə.Davudoğlu həmçinin, SSRİ-nin vaxtilə Əfqanıstanda üzləşdiyi aqibəti xatırladaraq Rusiyanın da Suriyadakı aqibətinin buna bənzəyəcəyini söyləyib.** "Rusiya rəhbərliyinə demək istəyirik ki, artıq Sovetlər İttifaqı dövrü bitib. Həm də 25 il əvvəl bitib. O dövrü təkrar canlandırmağa çalışmaq Rusiya üçün xeyirli nəticələr doğurmaz. Bu, rus xalqının da qəbul etmədiyi bir şeydir" - xəbərdarlıq edib baş nazir.

***

Rusiyanın həm bu açıqlamalara, həm də bütövlükdə Türkiyə baş nazirinin Ukraynaya səfərinə reaksiyası yəqin ki, qıcıqlı olacaq. Ən azı ona görə ki, bununla Ankara Moskvaya Krımın, Abxaziya və Cənubi Osetiyanın ilhaqı ilə beynəlxalq hüququ hörmət etmədiyini növbəti dəfə ona xatırladıb, eyni zamanda oxşar prosesləri Suriyada irəlilətməyə ona imkan tanımayacağının aydın mesajını verib, nəhayət, Azərbaycana qarşı da analoji siyasət apardığına diqqət yönəltməklə bu siyasəti kəskin tənqid edib.

Qeyd edək ki, Türkiyə lap əvvəldən Krım məsələsində Ukraynanın yanında olub və bu mövqeyi 2014-cü ildə, BMT Baş Məclisindəki səsvermə zamanı ortaya qoyub, Rusiyanın işğalçılıq və ilhaqçılıq siyasətinə qarşı çıxıb. Paralel surətdə Krım türklərinə hərtərəfli dəstəyini davam etdirməyə çalışır.

**Bu xüsusda Davudoğlunun Ukraynaya səfər çərçivəsində Krım tatar xalqının lideri, sovet dissidenti, Krımın zorla Rusiyaya ilhaqına sərt etiraz etdiyi üçün öz vətəninə buraxılmayan Mustafa Cəmiloğlu ilə də görüşməsi Moskvaya növbəti qiymətli xəbərdarlıq mesajı sayıla bilər.**

❑ **Siyasət şöbəsi**

# Qərb müxalifətin birləşməsini istəyir?

## Pənah Hüseyn: "Azərbaycan müxalifətinin əhəmiyyətli hissəsi heç də xaricin dediyi ilə oturub-durmur"

**Bəzi siyasi ekspertlər iddia edir ki, Qərbin, beynəlxalq təşkilatların Azərbaycanda müxalifətə lazımı dəstək verməməsinin səbəblərindən biri də müxalifət partiyaları arasında gərginlik, münasibətlərin düşmənlik həddində olmasıdır. Belə hesab edilir ki, bu vəziyyətdə müxalifətin hakimiyyətə gəlişi daxili intiriqaları iqtidara daşıya və nəticədə Qərbin də buradakı maraqlarına təhlükə yarana bilər. Qərb dairələrini çəkindirən də budur.**

Bəs deyilənlər nə dərəcədə əsaslıdır?

Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn qeyd olunan fikirlərin həqiqəti əks etdirmədiyini, həmin şərhlərin hakimiyyətin illərdir apardığı təbliğatın təsiri altında verildiyini düşünür: "Bütün bunlar iqtidaryönlü təbliğatın ştamplarıdır, müxalifət əleyhinə olan əkstəbliğatdır. Prinsip etibarilə müxalifətin bir araya gəlməsinin xaricdən idarə olunması şəklində qoyulması yanlışdır. Azərbaycan müxalifətinin ən azı əhəmiyyətli bir hissəsi heç də xaricin dediyi ilə oturub-duran müxalifət deyil. Azərbaycan müxalifətinin bir araya gəlməsi ölkədə ictimai-siyasi fəallığın dirçəlməsi ilə həll olunacaq məsələdir. Getdikcə ictimai-siyasi fəallıq yüksəlir və bu prosesin özü Azərbaycan müxalifətini birləşdirəcək və müxalifət bir araya gələcək".

❑ **Etibar SEYİDAĞA**

Rusiya-Türkiyə münasibətlərinin kəskinləşməsi işğalçı Ermənistanda forpost ölkə olaraq həm narahatlığı artırıb, həm də, deyəsən, yeni ümidlər yaradıb. Məsələ ondadır ki, ermənilər son olaylar fonunda özlərinin Moskva üçün güclənən önəmini gözə soxaraq, Türkiyəyə qarşı ərazi iddialarına yeni nəfəs qazanacaqlarına ümidlidirlər.

# Tanınmış erməni politoloqu erməniləri aşağıladı

## Aleksandr Miqranyan: "Eşşəkdən törəyənlər, Rusiyaya "sağ ol" deyin və onun dalından öpün!..."

1921-ci ildə imzalanmış və regional təhlükəsizliyin bərqərar edilməsində bu gün də mühüm rol oynayan Türkiyə-Rusiya və Qars müqavilələrinin ləğvi yönündə hərəkətliliyin arxasında məhz bu hədəflər durur. Lakin əksər ekspertlərə, o cümlədən hətta bir sıra erməni analitiklərinə görə, belə şey gözlənilmir və Rusiyada bu məsələnin kommunistlərin əli ilə gündəmə gətirilməsi də sırf Ankaraya təzyiq niyyəti güdür. Bundan o tərəfə heç nə olmayacaq. Ermənistana qalan isə yalnız Rusiyadan bərk-bərk yapışmaq, formal dövlət kimi öz mövcudluğuna görə ona minnətdar olmaqda davam eləməkdir.

Bu və digər məsələlərlə bağlı erməni əsilli tanınmış politoloq, uzun illər Rusiyada, son 8 ildə isə ABŞ-da yaşayan Andranik Miqranyanın tert.am erməni nəşrinə verdiyi son müsahibəsi kifayət qədər diqqətçəkicidir.

**Miqranyan deyib:** "Erməni ictimaiyyəti başa düşməlidir ki, Ermənistan Türkiyə ilə - 80 milyonluq əhaliyə və nəhəng hərb maşınına malik, fəal şəkildə inkişaf edən bir dövlətlə qarşıdurmada heç bir şansı yoxdur. Odur ki, Rusiyanın zəmanətləri olmasa, Ermənistan heç kimə - nə ABŞ-a, nə İngiltərəyə, nə NATO-ya, heç kimə bel bağlaya, güvənə bilməz! Bu xüsusda vəziyyətdən çıxış edərək, - yeri gəlmişkən, bu barədə Vaşinqtonda da, Moskvada da demişəm, - qeyd edim ki, əgər Türkiyə hərbi təyyarəsi yenidən Ermənistanın sərhədini pozarsa, o zaman Ermənistanın və ya Rusiyanın HHQ qüvvələri türk təyyarəsini məhv edə bilər, bu halda onlar yalnız özlərindən küsməlidir. Söhbət təyyarənin yalnız Ermənistan ərazisindən vurulmasından gedir".

**Sərhəd pozuntusu məsələsini davam etdirən erməni politoloq daha sonra bildirib:** "Deyəsən, ötən payız Türkiyənin hərbi vertolyotları Ermənistanın hava məkanını pozmuşdu. Onları vurmaq lazım idi ki, bilsinlər ki, bu - öz sərhədləri olan başqa bir dövlətdir. İndi də məqamdan istifadə edib vurmaq lazımdır. Bunu həmişə etmək lazımdır. Mən Ermənistan və Türkiyə arasında münaqişəni təşviq eləmirəm, ancaq Türkiyə tərəfi özünü çox abırsız aparır, Sürix protokollarından sonra isə ifrat kapriz göstərir. Ona görə də onlar bilməlidirlər ki, onlara qarşı da intizam qaydasında kontur-amil var, çünki mahiyyət etibarilə bu, Ermənistan ərazisi olmaqla yanaşı, həm də Rusiyanın qoruduğu KTMT ərazisidir".



**Bu yerdə jurnalist ona saxta erməni "soyqırımı"nı inkara görə cəza nəzərdə tutan qanun layihəsinin Rusiya Dövlət Dumasına təqdim edildiyini xatırladıb və ardınca onun aqibəti ilə maraqlanıb, eyni zamanda rusları "erməni məsələsi" ilə möhtəkirlik etməyə çalışmaqda qınayıb. Miqranyanın verilən suala və irada reaksiyası təhqiramiz olub:** "Bu başabəla yerli vətənpərvərlər və rusofobların onlardan istifadə olunduğunu iddia etməsi gülməlidir. Yazıq heyvanat! Məgər istifadə eləməsələr, o zaman kimsə sizin problemlərinizi yada salacaqmı? Allaha şükür edin ki, türklər belə yanlışı yapıb və indi Rusiya dövləti bütün gücü ilə türkləri cəzalandırmağa çalışır, bundan ötrü arxivdəki problemləri işıq üzünə çıxarır, çünki siz - yazıq heyvanat hətta bütün səylərinizi birləşdirib 100 il çalışsanız da buna nail ola bilməzdiniz! Rusiyaya "sağ ol" demək lazımdır ki, o, Ermənistandan deyil, erməni məsələsindən istifadə edir. Allaha şükür ki, Rusiya öz maraqlarından çıxış edərək, sizin məsələlərinizi də qaldırır, irəli aparır. Məgər Rusiya "ey türklər, siz Ermənistana qarşı cinayət eləmisiniz" deməklə ermənilər əleyhinə nəsə edir ki?"

**Erməni jurnalistin növbəti dəfə "bu məsələni Rusiya yalnız özünə sərf elədiyi vaxt yada salır" iradına politoloqun cavabı belə olub:** "Siyasət belədir. Ancaq əgər ruslar yada salmasa, məsələ beləcə də basdırılmış qalmayacaq ki? Eşşəklər, siz bundan istifadə edə bilərsiniz, fürsət düşüb böyük bir dövlət bundan danışmağa başlayıb!"

"Rusiyaya "sağ ol" deyin və onun dalından öpün, nəinki özünüz haqda yüksək fikirdə olaraq iddia edin ki, sizdən istifadə edirlər! Eşşəkdən törəyənlər...", - deyə Miqranyan əsəbi tərzdə vurğulayıb.

❑ **Siyasət şöbəsi**

# ABŞ Dövlət Departamenti Nulandla bağlı şübhəyə aydınlıq gətirmədi

## AŞ PA-da Azərbaycanın xeyrinə olan qətnamənin qəbul olunmamasında Nulandın rolunun olduğu barədə suala diplomatik cavab verilib

**ABŞ Dövlət Departamenti Azərbaycan torpaqlarının işğalı ilə bağlı AŞ PA qətnaməsinin qəbul edilməməsində dövlət katibinin köməkçisi Viktoriya Nulandın rolu barədə "Turan" agentliyi və "Amerikanın səsi" radiosunun birgə sorğusuna aydın cavab verməyib. Suala diplomatik dildə cavab verilib: "Birləşmiş Ştatlar Azərbaycanın Dağlıq Qarabağla bağlı məsələləri istənilən regional və beynəlxalq təşkilat qarşısında, o cümlədən AŞ PA-da qaldırmaq kimi suveren hüququna hörmətlə yanaşır".**

Dövlət Departamentindən Minsk Qrupunun tərəflərin qəbul etdiyi danışıq formatı olduğunu vurğulanıb: "Biz ümid edirik ki, tərəflər sülh yolu ilə həll prosesində həmsədrlərlə sıx işləmək işinə tam sadiq qalacaqlar".

Xatırladaq ki, Robert Volterin müəllifi olduğu "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması" adlı qətnamə layihəsi AŞ PA-nın qış sessiyası çərçivəsində yanvarın 26-da müzakirəyə çıxarılıb. 181 deputatın iştirak etdiyi səsvermədə 66 nəfər lehinə, 70 nəfər əleyhinə səs verib, 45 nəfər bitərəf qalıb.

Layihə qəbul olunmayıb. Sözügedən sənədin AŞ PA-da qəbul edilməməsində ABŞ Dövlət Departamenti və dövlət katibinin müavini Viktoriya Nulandın əlinin olduğu barədə informasiya yayılması Azərbaycan hakimiyyətinin təmsilçiləri və iqtidar mediasının son iki həftə ərzində anti-ABŞ mövqeyinə keçməsinə səbəb olmuşdu. Ötən həftə "Yeni Müsavat"a açıqlamasında siyasi analitik **Elxan Şahinoğlu** isə bildirmişdi ki, AŞ PA-da Azərbaycanın xeyrinə olan qətnamənin qəbul edilməsinə Nulandın imkan vermədiyi barədə ermənilər dezinformasiya yayıb. Belə ki, bir ermənipərəst amerikalı konqresmen Ermənistanın hansısa saytına müsahibəsində deyib ki, sən demə, AŞ PA-da Azərbaycanla bağlı qətnamənin keçməməsində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın xüsusi rolu olub: "Məqsədli şəkildə səslənmiş bu dezinformasiyanı ermənilər geniş şəkildə yaydılar. Çox təəssüf ki, həmin dezinformasiya da Azərbaycanda baş xəbərə çevrildi, hakimiyyətə yaxın bir sıra şəxslər də bu dezinformasiyanı həqiqət zənn edərək, ABŞ əleyhinə fikirlər bildirməyə başladılar. Hətta Azərbaycan Xarici İşlər Nazirliyi açıqlama verdi ki, Nuland məsələsini araşdıracaqlar. Amma Nulandla bağlı araşdırma aparmağa ehtiyac yoxdur.




Araşdırılmalı bir şey varsa, bu da Azərbaycan diplomatiyasının fəaliyyətidir. Araşdırsınlar ki, niyə Azərbaycanın Avropa ölkələrindəki səfirləri bu qədər passiv oldu ki, AŞ PA-da qətnamə keçmədi. İzah edilməlidir ki, necə oldu ki, Azərbaycanla bağlı qətnamənin qəbuluna cəmi 4 səs çatmadı? Axı bunun günahını Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinə yükləmək düzgün deyil. XİN və bizim xaricdəki səfirlərimiz Avropadakı deputatların nə qədəri ilə izahat işi aparıblar, nə qədərini Azərbaycanın mövqeyinə yaxınlaşdırıblar? Məndə olan məlumata görə, cəmi bir qrup avropalı deputata məktub göndərilib, onların da mütləq əksəriyyəti qətnamənin əleyhinə səs veriblər. Ona görə də Nulandı günahlandırmaq, ABŞ-a qarşı açıqlamalar vermək deyil, XİN-dən hesabat tələb etmək lazımdır".

**Ekspertin sözlərinə görə, ermənilərin məlum dezinformasiyanı yaymasında məqsəd böyük ehtimalla Azərbaycanla ABŞ arasında münasibətləri pozmaqdır:** "ABŞ prezidenti Barak Obama prezident İlham Əliyevi martın sonunda ABŞ-a Nüvə Təhlükəsizliyi Konfransına dəvət edib. Ermənilər o dezinformasiyanı yaymaqla bu səfər ərəfəsində ABŞ-Azərbaycan münasibətlərini gərginləşdirməyi hesablayıblar. Azərbaycan cəmiyyəti, xüsusilə hakimiyyət təmsilçiləri bunu nəzərə almalıdırlar və dezinformasiyanın təsiri altına düşüb ABŞ-la münasibətlərə gərginlik gətirə biləcək mövqe sərgiləməməlidir".

ABŞ Dövlət Departamentindən dünən verilən açıqlama onu deməyə əsas verir ki, ABŞ Dövlət Departamenti Azərbaycanın narazılığının fərqindədir və diplomatik dildə Azərbaycanı müdafiə etdiklərini ifadə eləyir.

❑ **E.SEYİDAĞA**




## Qarşıdakı 15 il Rusiya iqtisadiyyatı üçün durğunluq dövrü olacaq

**2030-cu ilə kimi Rusiya iqtisadiyyatı ildə cəmi 1-1,3% artacaq. Avropa.info xəbər verir ki, gələcək 15 ildə ölkə ÜDM-i 13% artacaq. Müqayisə üçün demək lazımdır ki, sadəcə 2011-2013-cü illərdə bu miqyasda artım qeydə alınmışdı.**

2014-cü ildə qeydə alınan ÜDM yalnız 2020-ci ildə özünü bərpa edəcək. 2014-cü ildə verilən maaşlar isə yalnız 10 ildən sonra qayıdacaq. Bütün bu məlumatlar Rusiya Maliyyə Nazirliyinin hesabatında öz əksini tapıb.

Nazirlik bildirir ki, ölkə struktur islahatlar keçirməsə bu ssenari ilə üz-üzə qalacaq. Bu ssenariyə əsasən neftin bir barelinin qiyməti 40 dollar olmalıdır. Rusiyanın neft hasilatının artım səviyyəsi 2016-cı ildə tamamilə dayanacaq. İnflyasiya 2017-ci ildə 4% təşkil edəcək, 2030-cu ilə kimi 2,6% təşkil edəcək.

Maliyyə Nazirliyinin nümayəndəsi bildirib ki, struktur islahatları keçirmək üçün neftin bir barelinin 50 dollar olması lazımdır.

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016

**Mərkəzi Bankın İdarə Heyəti fevralın 15-dən uçot dərəcəsini 5 faiz, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin aşağı həddini 2 faiz, yuxarı həddini isə 10 faiz səviyyəsində müəyyən etmək barədə qərar qəbul edib. Bankdan verilən məlumata görə, bu addım milli valyutaya olan etimadı gücləndirmək, manat depozitlərinin artmasını təşviq etmək, eləcə də pul bazarında formalaşmış konyunktura uyğun olaraq pul siyasəti alətlərinin təkmilləşdirilməsinə şərait yaratmaq üçün atılıb. Hazırda uçot dərəcəsi 3 faizdir.**




# Mərkəzi Bank uçot dərəcəsini qaldırdı - növbəti devalvasiyaya qarşı addım?!

## Ekspertlər bildirirlər ki, Mərkəzi Bankın bu qərarı bir qədər gecikib, uçot dərəcəsinin yenə də artması gözlənilir...

**Ekspert Samir Əliyev** məsələ ilə bağlı bildirib ki, Mərkəzi Bankın bu qərarı bir qədər gecikib: “Milli valyutaların devalvasiyasından sonra inflyasiya təzyiqlərini azaltmaq üçün bir qayda olaraq mərkəzi banklar uçot dərəcəsini qaldırır. Bu baxımdan Mərkəzi Bankın uçot dərəcəsini 3 faizdən 5 faizə qaldırması gözlənilən idi. Əslində Mərkəzi Bankın bu qərarı bir qədər gecikib. Çünki MB siyasəti pul kütləsini azaltmaq olub və inflyasiyaya qarşı belə mübarizə aparıb. Mərkəzi Bankın bu addımı inflyasiyanı cilovlamaqdır və manat aktivlərinin gəlirliyini artırmaqdır. Belə ehtimal etmək olar ki, bankları təmin etmək üçün Mərkəzi Bank yaxın dövrlərdə manat kütləsini artırmaq niyyətindədir. Bu addım kreditləri bahalaşdıracaq və iqtisadi aktivliyi məhdudlaşdıracaq. Görünür, monetar siyasət iqtisadi aktivliyi artırmaqdan çox qiymətlərin artımının qarşısını almaq üzərində qurulub. Bunu manata güvənliyi artırmaq siyasətinin tərkibi hissəsi də adlandırmaq olar”.

**Ekspert Əkram Həsənov isə qeyd edib ki, uçot dərəcəsinin yaxında yenə də artması gözlənilir:** “Ona görə uçot dərəcəsi artırılıb ki, dövriyyədə manat qıtlığı var. Elə məhz buna görə də manatın məzənnəsi bir qədər artıb. Hamı əlində olan manatı dollara çevirib. İqtisadiyyatımız iflic vəziyyətə doğru gedir. Bu qıtlığı banklara manat kreditləri verməklə aradan qaldırmaq olar. Lakin Mərkəzi Bank vermir. Qorxur ki, verdiyi manatı da dollara çevirməyə başlayacaqlar və olan qalan valyuta ehtiyatları da əlindən çıxacaq. Manatın məzənnəsinin cüzi möhkəmlənməsi heç nə demək deyil. Ölkənin valyuta gəlirləri azalan xətlə gedirsə, milli valyutanın möhkəmlənməsi mümkünsüzdür. Buna görə də uçot dərəcəsini qaldırır ki, manat kreditləri bahalaşsın və manatı dollara dəyişmək istəyi azalsın. Lakin təbii, bu məqsəd üçün 5 faiz də çox aşağı dərəcədir. Əlbəttə, əgər banklar Mərkəzi Bankdan krediti həqiqətən 5 faizlə götürəcəksə, yəni ”şapka” söhbəti olmayacaqsa, bu, aşağı rəqəmdir. Buna görə də uçot dərəcəsinin yaxında yenə də artması gözləniləndir”.

**Ekspert Natiq Cəfərli isə “qafqazinfo”ya açıqlamasında qeyd edib ki, uçot dərəcəsinin artması kredit faizlərinin artmasına səbəb olacaq:** “Dünənə qədər bu dərəcə 3,25 faiz idi, indi 5 faizə qədər qaldırılıbsa, bu o deməkdir ki, kreditlərin faizləri də artacaq. Mərkəzi Bank necə olur ki, bunu manata olan inamın bərpası kimi təqdim edir, bunu başa düşmək mümkün deyil. Əgər uçot dərəcəsi aşağı salınsaydı, o zaman bu doğru olardı. Eyni zamanda kredit dərəcələrinin artması inflyasiyanın artmasına, kreditlərin daha da bahalaşmasına səbəb olacaq. Bundan əlavə, uçot dərəcəsinin artması banklarda olan problemi bir az da dərinləşdirəcək. Mərkəzi Bank banklara kömək etməkdənsə, uçot dərəcəsini artırır... Banklar bundan sonra daha çətinliklə manata çıxış əldə edəcəklər. Onsuz da kreditlərin verilməsi dayandırılıb. Dükanlar bağlanır, ticarət dövriyyəsi azalır. İndi Mərkəzi Bank tərəfindən sıx monetar siyasət aparılacaqsa, daha böyük problemlər olacaq”.

**Millət vəkili Vahid Əhmədov isə uçot dərəcəsinin 5 faizə qaldırılması ilə bağlı Mərkəzi Bank tərəfindən verilən qərarı devalvasiyaya qarşı addım adlandırıb:** “Hazırda Mərkəzi Bankın qarşısında duran ən ciddi məsələ manatın məzənnəsini qoruyub saxlamaqdan ibarətdir ki, milli valyuta növbəti devalvasiyaya uğramasın. Bunun üçün də Mərkəzi Bank tərəfindən müəyyən addımlar atılır”. **Onun sözlərinə görə, Mərkəzi Bank uçot dərəcəsini qaldırmaqla manatın məzənnəsini müəyyən müddətə qoruyub saxlamaq istəyir:** “İnsanların banklara olan inamını qaytarmaq lazımdır. Eyni zamanda əmanətlərini banklara qoymaq üçün şərait lazımdır. Kredit faizlərinin artması əmanətlərin də faizlərinə təsir göstərəcək. Hesab edirəm ki, bu müvəqqəti addımdır. Çünki manatın dəyəri birbaşa neftdən asılıdır. Yəni ümumi iqtisadi vəziyyətdən asılı olaraq bu addım atılıb”. Millət vəkili qeyd edib ki, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin artması isə bankın aktiv və passivləri, kredit portfeli, nağd və nağdsız hesablaşmalarla əlaqədardır: “Faiz dəhlizinin artırılması müəyyən qədər kredit portfelinə də təsir edəcək. İnanmıram ki, bu qərarlar bankların manata olan çıxışını məhdudlaşsın. Əsas odur ki, müəyyən qədər əmanətlərin faizində artım olacaq. Bu da əmanətləri banka qoymaq üçün şərait yaradacaq. İkinci devalvasiyadan sonra banklarla bağlı problemlər meydana çıxıb. Bu inamı qaytarmaqdan ötrü Mərkəzi Bank müəyyən addımlar atır. Bununla yanaşı, Milli Məclis ”Əmanətlərin tam sığortalanması haqqında" Qanun qəbul edib. Düzdür, qanun hələ ölkə başçısı tərəfindən imzalanmayıb. Yəqin gözləyirlər ki, banklarda birləşmə prosesi qurtarsın. Bundan sonra qanun imzalanacaq”.

Qeyd edək ki, uçot dərəcəsi (yenidən maliyyələşmə dərəcəsi)- Mərkəzi Bankın ölkənin digər banklarını pul kütləsi ilə təmin etməsidir. Yəni Mərkəzi Bank kommersiya bankları və digər maliyyə təşkilatlarına kredit verir, onlar isə öz növbəsində həm adi vətəndaşları (fiziki şəxslər), həm də müxtəlif şirkət və təşkilatları (hüquqi şəxslər) kreditlə təmin edir.

❑ **Röya RƏFİYEVA**

# Dollar krediti olanlara daha bir bəd xəbər

## Ekspertin sözlərinə görə, banklar indi də borclu vətəndaşların əmlaklarına göz dikib-məhkəmələr artacaq...

**Hökumətin dollar kreditləri ilə bağlı atacağı addımlar artıq arxa plana keçib. Üstəlik, növbəti devalvasiyanın istisna olunmaması əhalidə narahatlıq yaradır. Çünki ötən il ərzində baş verən iki devalvasiya dollarla krediti olan vətəndaşları böyük çətinliyə salıb, kreditlərin ödənişi mümkünsüz hala gəlib. Ekspertlər bildirirlər ki, əslində bankların xarici valyuta ilə kredit verməsi qanunsuz olsa da, Mərkəzi Bank aylarla bankların bu addımına göz yumub. Bu səbəbdən dollar kreditlərinin verilməsində banklar və Mərkəzi Bank günahkar olsa da, bu qurumların hərəkətinin əziyyətini vətəndaşlar çəkməkdədir.**



**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, hökumətin artıq dollar kreditləri ilə bağlı hər hansı addım atacağını gözləmir: “Hesab edirəm ki, o məsələ bağlanıb. Artıq dövlət rəsmiləri birmənalı şəkildə bildirib ki, dövlət hesabına heç bir yardım edilməyəcək. Bankların da əsas etibarı ilə təklif etdiyi güzəşt ondan ibarətdir ki, borcun vaxtını uzadırlar. Bu da təbii ki, borclanlara sərf etmir. Borc yenə də dollarla qalır. Yəni həmin o borcalanlar üçün təhlükə sovuşmur. Həm də borcun uzanması o deməkdir ki, onlar bankla daha çox məbləğ, faiz ödəyəcəklər. Bu, banklara sərf edir. Həmin borcalananların bir qismi banklara təklif edirlər ki, heç olmasa, borcumuzu manata çevirin və sonra müddəti uzadın. Banklar ona da getmir, deyirlər ki, pul yoxdur, Mərkəzi Bank bizə manat vermir. Günahı, təqsiri Mərkəzi Bankda görürlər. Bu borcların daha çox hissəsi əhaliyə aid deyil, sahibkarlara aiddir. Buna görə hesab edirəm ki, nəticədə borcların böyük hissəsi banklara qayıtmayacaq. Banklar maksimum çalışırlar kimisə qorxutsunlar, kiminsə əmlakını əlindən alsınlar, satsınlar. Bu yollarla o borcu heç olmasa, nisbətlə qaytara bilsinlər. Buna görə düşünürəm ki, məhkəmə prosesləri artacaq. Daha çox girovları olan borcalanları məhkəməyə verirlər. Banklar girovun satılması yolu ilə o borcların bir hissəsini qaytara, bağlaya bilsinlər. Yəni bu məsələ azı bir neçə il ərzində Azərbaycan üçün çox problemli olacaq. Azı beş il problem aktual olacaq. Bu problem hələ hesab edirəm ki, qabaqdadır. O zaman banklar başlayacaqlar kütləvi şəkildə girov qoyulmuş evləri, mənzilləri satışa çıxarmağa cəhd etməyə. O zaman çox böyük problemlər olacaq. Hələ indi gördüyümüz elə də ciddi problem deyil. Əsas problemlər bizi qabaqda gözləyir”.

**Ekspert Samir Əliyev isə qeyd edib ki, hökumət artıq qəti qərara gəlib və vətəndaşlara heç bir dəstək verməyəcək:** “Fiskal və monetar siyasət rəhbərlərinin son açıqlamaları hökumətin valyuta kreditlərinin ödəyicilərinə dəstək vermək niyyətində olmadığını bir daha nümayiş etdirdi. Belə görünür ki, bankların və bəzi millət vəkillərinin cəhdləri nəticə verməyəcək və əhali kredit borclarını cari məzənnə ilə ödəməli olacaq. Hökumətin iqtisadi blokunun rəhbərlərinin əsaslandırması budur ki, belə bir addım maliyyə intizamını poza bilər. Bu barədə Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov həvəssiz danışsa da, maliyyə naziri Samir Şərifov bir az da irəli gedərək əhalinin dollarda kredit götürməsini qınayıb və problemin həllini Mərkəzi Bankın üstünə atıb. Baş bankirin həvəssizliyini anlamaq olar. Onu daha çox bankların taleyi maraqlandırır və hökumətdən maksimum dərəcədə dəstək almaq istəyir. Maliyyə nazirinin də mövqeyini anlamaq olar. Loru dildə desək, banklara pulu o verməlidir. Çünki onun əsas əsas vəzifəsi dövlət büdcəsinin vəsaitlərinin hər qəpiyinə nəzarət etmək və onun səmərəsiz xərclənməsinə imkan verməməkdir. Ancaq təəssüf ki, bu vəzifələr düzgün icra edilmədiyi üçün milyardlarla investisiya xərcləri səmərəsiz xərclənib, Maliyyə Nazirliyinin də idarəçiliyinə məsul Beynəlxalq Bankın aktivlərinin sağlamlaşdırılmasına 3 milyard manat yönəldilib. Hər iki maliyyə kapitanının, xüsusən də maliyyə nazirinin probleme yanaşması çox qüsurludur. Elə aparılan müqayisə də uğursuzdur. Burada hansı maliyyə intizamının pozulmasından söhbət gedə bilər? Bəs kim zəmanət verə bilər ki, dövlətdən və Mərkəzi Bankdan daim dəstək alan Beynəlxalq Bank bundan sonra maliyyə intizamını pozmayacaq? Niyə içməli suya görə borclar bağışlananda maliyyə intizamının pozulması stimullaşdırılmırdı, amma kreditlərə çatanda yada düşür? 2011-ci ildə əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərinə görə 294,2 milyon manat məbləğində borcları silindi. O borcların nə qədər hissəsinin əhaliyə aid olduğunu qoyuram kənara. Həmin qərar bir tərəfdən humanist addım olsa da, digər tərəfdən pulunu vaxtında ödəyən vətəndaşın hüququnu pozurdu. Məhz bu tipli güzəştlər vətəndaşlarda arxayınçılıq yaradır və ümid edirlər ki, dövlət yenə də onların borclarını bağışlayacaq. Kredit məsələsinə gəldikdə isə tamam fərqli mənzərədir və fərqli yanaşma tələb edir. Heç kim hökumətdən kredit borclarının kompensasiya etməsini tələb etmir. Buna ehtiyac da yoxdur və çox pis ənənənin əsası qoyula bilər. Söhbət hökumətin, xüsusən də Maliyyə Nazirliyinin təşəbbüsü ilə baş vermiş devalvasiyanın əhalinin sosial vəziyyətinə vurduğu ağır zərbənin təsirlərini minimuma endirməkdən gedir. Hökumət valyuta ehtiyatlarını qorumaq və büdcəni əlavə gəlirlərlə təmin etmək üçün 2015-ci ildə manatı 2 dəfə ucuzlaşdırıb. Bu qərarın nəticəsi olaraq dollarla kredit götürməyə məcbur olmuş əhalinin, sahibkarların aylıq ödənişi 2 dəfə artıb. Hökumətdən də tələb olunur ki, kreditin artan hissəsinin yükünü boynuna götürsün. Elə insan var ki, 2014-cü ildə dollarla kredit götürüb və onun borcu 2 dəfə artıb. Birinci devalvasiyada hökumət problemi bankların boynuna atdı. Banklar isə cüzi kömək edib problemi əhalinin boynuna atdı”.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016

# "Həbsdəki aparat rəhbərinin həyatına təhlükə var" - iddia

## RYTN-in "qara qutu"su olan Vidadi Zeynalov İlqar Əliyevin aqibətini yaşaya bilərmi?

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) həbsdəki aparat rəhbəri Vidadi Zeynalov həbsi ilə barışa bilmir. Bu haqda müsavat.com-a məlumat verən mənbə bildirib ki, məsələ heç də daim komfort içində yaşayan, bahalı maşınlara, villalara öyrəşmiş V.Zeynalovun gözlənilməz həbsindən sonra məhbəs divarları arasına salınmasının yaratdığı diskomfortla məhdudlaşmır.**


Vidadi Zeynalov

İş bundadır ki, Vidadi Zeynalov RYTN-dən öncə, 1995-ci ildə Bakı Şəhər Maliyyə İdarəsində əvvəlcə şöbə rəisi vəzifəsində çalışıb, 2000-ci ilədək isə Bakı Maliyyə İdarəsinin rəisi olub. 2000-2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin inzibati - təsərrüfat işləri üzrə prorektoru vəzifəsində çalışıb, 2004-cü ildən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri vəzifəsinə təyin edilib. Onun daha yüksək vəzifəyə təyinatında sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun rolu olub. Həbsdəki eks aparat rəhbəri ilə sabiq naziri MTN-in Tədris Mərkəzinin rəisi vəzifəsində çalışmış qardaşı Vahid Zeynalovun tanış etməsi haqda məlumatlar var. Bu əlaqələrə görə V.Zeynalov RYTN-də MTN çetesinin adamı kimi tanınıb.

Hazırda E.Mahmudov həbsdə olmasa da, onun rəhbərliyi altında çalışmış 10-a yaxın general da daxil olmaqla, ümumilikdə 20 MTN-çi həbsdədir. Tutulanlara verilən ittihamlar sırasında qanunsuz dinləmə ittihamı da yer alıb. Belə məlumatlar da var ki, qanunsuz dinləmələr MTN-dəki xüsusi bölümün və RYTN-dəki MTN çetesinə əlaqəli şəxslərin köməkliyi ilə həyata keçirilib. Bu baxımdan V.Zeynalovun böyük sirlərə malik olması ona "MTN işi"ndə həbs olunan qurumun Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin taleyini yaşada bilər. Yada salaq ki, İ.Əliyev həbsindən sonra bildiklərini danışacağı ilə bağlı məhkəmələrdə bəyanatlar vermişdi. Az sonra isə sabiq rəis müavini Bakı İstintaq Təcridxanasında saxlanıldığı kamerada asılmış vəziyyətdə aşkarlandı. İlqar Əliyevin ölümü ilə əlaqədar özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlansa da, bu işin heç bir perspektivinin olmadığı da gün kimi aydındır. İ.Əliyev həbsə alınan MTN-çilər arasında qurumdakı qara işlərin "qara qutu"su hesab olunurdu. Vidadi Zeynalov da "Rabitəçilərin işi" üzrə eyni statusda olan şəxs kimi tanınır. Bakı İstintaq Təcridxanasında saxlanılan V.Zeynalovun da ara-sıra danışacağı, bildiklərini açıb deyəcəyi xəbərləri gəlir. Ona görə də həbsdəki aparat rəhbərinin həyatının təhlükə altında olduğunu hesab etmək olar. Vidadi Zeynalov da RYTN-in "qara qutu"sudur. Onun ehtiyatsız bəyanatlar verib çölə ismarış göndərməsi günlərin birində qəzet səhifələrində barəsində xoşagəlməz yazıların dərc olunması ilə də nəticələnə bilər. Bu baxımdan V.Zeynalovun daha ehtiyatlı olması, bildiklərini çölə ötürməzdən əvvəl danışmaması "məsləhət"dir.

Yada salaq ki, V.Zeynalov nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin isə 4-5 qat şişirdilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməklə müvafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsini və israf edilməsini təşkil etməkdə ittiham olunur. O, ötən ilin noyabrında Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə) maddəsi ilə ittiham olunaraq barəsində Binəqədi Rayon Məhkəməsi tərəfindən 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Bugünlərdə isə sabiq aparat rəhbərinin həbs müddəti daha 4 ay artırılıb.

❑ **E.HÜSEYNOV**




# Rabitə Nazirliyinin daha bir idarə rəisi işdən çıxarıldı

## RİTN-in tutulan keçmiş yüksək vəzifəlilərinin isə həbs müddəti artırıldı

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyində daha bir kadr dəyişikliyi baş verib. APA-nın əldə etdiyi məlumata görə, qurumun Dövlət Radiotezliklər İdarəsinin rəisi Əflatun Məmmədov işdən çıxarılıb.**

Ə. Məmmədovun köməkçisi sayta bildirib ki, məsələ ilə bağlı şərh vermək səlahiyyəti idarənin baş mühəndisi İlham Əfəndiyevə ötürülüb. İ. Əfəndiyev isə bildirib ki, məsələ ilə bağlı şərh vermək səlahiyyətində deyil.

Nazirliyin mətbuat xidməti də məsələyə münasibət bildirməyib.

Bu arada Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin keçmiş əməkdaşları - Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin sabiq rəhbəri Beytulla Hüseynov, "AzİnTelekom" MMC-nin sabiq baş direktoru Cəlil Cəfərov, "Azərpoçt" MMC-nin sabiq baş direktoru Qəmbər Bəybalayev, "Aztelekom" MMC-nin sabiq baş mühasibi Oktay Rüstəmov, "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin direktoru Namazalı Məmmədov, həmin MMC-nin baş mühasibi Səhrab Hümbətov, həmçinin Emin Məmmədov, Bayram Vəliyev barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb.

"Report"un əldə etdiyi məlumata görə, prokurorluğun müvafiq vəsatətlərinə Binəqədi Rayon Məhkəməsində baxılıb və onlar barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 3 ay artırılıb.

Qeyd edək ki, həmin şəxslər keçən il noyabr ayında Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Rabitə və Yüksək Texnologiyalar Nazirliyi sistemində həyata keçirilmiş yoxlamalar nəticəsində saxlanılıb. Daha sonra məhkəmə onlar barəsində həbs-qətimkan tədbirinin seçilməsi barədə qərar verib.

B.Hüseynov, E.Məmmədov, B.Vəliyevə və "Aztelekom" MMC-nin baş mühasibi O.Rüstəmov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), "AzİnTelekom" MMC-nin baş direktoru C.Cəfərov, "Azərpoçt" MMC-nin baş direktoru Q.Bəybalayev və "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin direktoru N.Məmmədov həmin məcəllənin 179.3.2 və 308.2-ci, MMC-nin baş mühasibi S.Hümbətov isə 179.3.2, 308.2 və 313-cü maddələri ilə ittiham olunurlar.

Xatırladaq ki, daha əvvəl Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalov, "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədov və "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş mühasibi Anar Mustafayev barələrində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 3 ay artırılıb.

# Dövlət komitəsindəki 170 min dollarlıq rüşvət qalmaqalının yeni təfərrüatları

## Komitənin aparat rəhbəri pulu alarkən tək olmayıb

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sabiq aparat rəhbəri Səfər İmanov vətəndaşdan 170 min dollar alıb və onu Bakının rayonlarından birində icra hakimiyyətinin başçısının müavini vəzifəsinə təyin etdirəcəyi haqda vəd verib. Bu haqda "Yeni Müsavat"a açıqlama verən vəkil Adəm Məmmədov deyib ki, Səfər İmanova 170 min dollar verən şəxs Qubadlı rayon sakinidir, keçmiş biznesmendir və 45 yaşındadır. Lakin vəkil hələlik onun adını açıqlamayıb.**

Xəbər verildiyi kimi, bir gün əvvəl Adəm Məmmədov facebook səhifəsində icra hakimiyyəti başçısının müavini vəzifəsi üçün vətəndaşdan 170 min dollar alan və öhdəliyini yerinə yetirməyən vəzifəli şəxs barəsində şikayət ərizəsi aldığı haqda məlumat yayıb. Vəkil həmin şəxsin ərizəsini araşdırılmaq üçün Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərib. Bununla belə, vəkil rüşvət alan vəzifəli şəxsin adını açıqlamamışdı, onun dövlət komitələrindən birində aparat rəhbəri olduğunu yazmaqla kifayətlənmişdi.

Məlum olub ki, S.İmanov 2015-ci il noyabrın 1-də öz ərizəsi ilə işdən çıxıb və vəkilin bildirdiyinə görə, daha sonra Almaniyaya qaçıb. Hazırda orada yaşayır.

"Yeni Müsavat"a daxil olan məlumata görə, S.İmanov həmin məbləği komitənin rəhbərliyinə daxil olan digər şəxsin kabinetində və onun iştirakı ilə alıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov "Report"un sorğusuna cavab olaraq bildirib ki, S.İmanovun 170 min dollar pul alması iddiası ilə bağlı rüşvət verən şəxsin vəkili Adəm Məmmədov komitədə olub. A.Məmmədovla söhbətdən sonra vəkilin iddia etdiyi faktın araşdırılması üçün bu il fevral ayının 7-də Dövlət Komitəsi rəsmi şəkildə Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə müraciət edib: **"Müraciət edilib ki, məsələ araşdırılsın, ehtiyac varsa, müvafiq tədbir görülsün. Biz hələ də baş idarədən cavab gözləyirik. Məsələ hələ təsdiqini tapmayıb, həmçinin təkzib edilməyib".**

Vəkil məsələ ilə bağlı araşdırmaların nəticəsindən asılı olaraq məlumat veriləcəyini də açıqlayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016

# Azərbaycanın postneft dövrünə qəfil başlamasının pərdəarxası

## Hökumət bu dövrə niyə 2030-cu ildə başlamağı planlaşdırırmış?

**Ölkə başçısının son çıxışlarında yadda qalan fikirlərdən biri də Azərbaycan üçün postneft dövrünün vaxtından əvvəl başlaması haqqında idi. Prezident bildirmişdi ki, əslində biz postneft dövrünə 2030-cu ildən sonra hazırlaşmağı planlaşdırırdıq. Lakin artıq bizim üçün neftdən sonrakı dövr başlayıb. Dövlət başçısı buna Qərb-Rusiya savaşının səbəb olduğunu və bu münaqişənin neftin ucuzlaşmasının başlıca səbəbi olduğunu göstərmişdi.**

Ölkə başçısının postneft dövrünü nə üçün məhz 2030-cu ildən sonraya hesablaması da sual doğuran məqamlardan biri idi.

"Yeni Müsavat"a açıqlamasında bu məsələyə münasibət bildirən **Neft Araşdırmalar Mərkəzinin rəhbər İlham Şaban** postneft dövrü ilə bağlı hesablamaları qəbul etmədiyini bildirib: "Prezidentin bu çıxışından mən belə anladım ki, hökumət uzun müddət neftin 100 dollardan baha olacağı proqnozuna özünü kökləyibmiş. Ancaq biz neftin son 40 ildəki qiymətlərini müqayisə etsək görərik ki, hər 5 ildən bir qara qızılın qiyməti dəyişir, gah ucuzlaşır, gah da bahalaşır. Yəni neft qiyməti stabil olan bir xammal deyil, onun qiyməti çox mürəkkəb faktorlardan asılıdır".



İlham Şaban



Elxan Şahinoğlu

**Ekspertin sözlərinə görə, hökumətin özündə də çox dəqiq proqnozlar var idi ki, getdikcə istehsal və ixrac azalacaq:** "Deyək ki, 2010-cu ildə sən 51 milyon ton neft hasil edibsən. 2021-ci ildə bu hasilatın həcmi 35 milyon ton olacaq, yəni 16 milyon ton azalacaq. Yəni qiyməti stabil olsa belə, gəlirlər çox kəskin şəkildə azalacaq. Ona görə də mən çox təəccüb edirəm ki, Azərbaycan hökumətinin iqtisadi təhlilçiləri reallığı əks etdirməyən məlumatları ölkə başçısına təqdim edirlər. Heç kim nəzərə almayıb ki, neft ucuzlaşa bilər, hasilat azala bilər. Ümumdaxili məhsul azala bilər. Yəni reallıqdan uzaq proqnozlar verilib".

**Postneft dövrünün başlamasının dünyada alternativ enerji mənbələrinin inkişafı ilə bağlı olmasına gəlincə, İ.Şaban bildirdi ki, alternativ enerji artıq inkişaf etmiş ölkələrin həyatına daxil olub:** "Ancaq alternativ enerji heç vaxt ənənəvi enerjini geridə qoya bilməz. Nə, 2030-cu ildə, nə də 2040-cı ildə. Sadəcə, enerji sektorunda alternativ enerjinin payı getdikcə artacaq. Bu, reallığı əks etdirən fikir olar. Getdikcə dünyada alternativ enerjidən yararlanmaq dərəcəsi artacaq. Bundan əlavə, ənənəvi enerjinin faydalı iş əmsalı artacaq. Eyni bir iş üçün daha az yanacaq sərf olunacaq. Ənənəvi enerjidən çox qənaətlə istifadə etmək metodları ortaya çıxacaq. Ona görə də ənənəvi enerjiyə olan tələbat, əsas istehlakçı ölkələr olan Qərb ölkələrində azalır. Yaxın 10 ildə dünyanı çox maraqlı proseslər gözləyir".

**Politoloq Elxan Şahinoğlu da postneft dövrünün başlamasının hökumət üçün gözlənilməz olduğunu bildirdi:** "Hakimiyyət təmsilçiləri neft istehsalının azalacağına hazır olsalar da, qiymətlərin bu dərəcədə düşməsinə hazır deyildilər. Ancaq beynəlxalq və yerli ekspertlərin proqnozları var idi ki, qiymətlər düşə bilər. Görünür, bu proqnozlar da diqqətə alınmadı".

**Postneft dövrünün başa çatmasının alternativ enerjinin tətbiqi ilə bağlılığına gəlincə, E.Şahinoğlu dünyada bu prosesin sürətləndiyini vurğuladı:** "Bu prosesə Azərbaycanda da başlanıldı. Neft gəlirlərinin yaxşı olduğu dövrdə də müəyyən layihələr ortaya qoyuldu. Buraya günəş enerjisi, külək enerjisi də və sair daxildir. Lakin proses istənilən sürətlə getmədi. Dünyada isə bu proses sürətlə gedir. Avropa bu məsələdə daha öncədir. İnkişaf etməkdə olan ölkələrdə alternativ enerjidən istifadəni genişləndirməyə çalışırlar. Ancaq ənənəvi enerji ilə alternativ enerji arasında nisbət getdikcə azalmaqdadır. Azərbaycanda isə hələ ki proses daha zəif gedir. Görünür, bu məsələdə bir qədər də gecikmişik. Çünki bu, maliyyə tələb edən bir sahədir və maliyyə imkanları da getdikcə zəifləyir".

❑ Nərgiz LİFTİYEVA

# Qarabağ veteranı onu küçələrdə qoyan icra başçısına səsləndi

## "Hökumətin mənə ayırdığı mənzili verin..."





**Binəqədi rayonu, Səttar Bəhlulzadə küçəsi, 3 saylı yataqxanada qeydiyyatda olan Qarabağ müharibəsi veteranı Ramiz Bayramov Rayon İcra Hakimiyyətindən şikayətçidir. "Yeni Müsavat" qəzetinə müraciət edən şikayətçi aldadıldığını deyir.**

Onun sözlərinə görə, 1984-cü ildə Binəqədi Rayon İcra Hakimiyyətinin 57 saylı sərəncamı əsasında ev növbəsinə dayanıb. Lakin bu vaxtadək ona ayrılmış mənzili ala bilmir. Şikayətçi dəfələrlə icra başçısı Xaləddin İsgəndərovun qəbulunda olduğunu, lakin probleminin hələ də həll edilmədiyini bildirir: "Qeydiyyata düşdüyüm yataqxanada hazırda məcburi köçkünlər yaşayır. Özüm isə kirayədəyəm. 1995-ci ildə mərhum prezident Heydər Əliyev Qarabağ veteranlarının sosial şəraitini yaxşılaşdırmaq məqsədilə fərman verdi. Mən də Qarabağ veteranı kimi 1995-ci ildə 5 nəfər ailə üzvümlə güzəştli ev növbəsinə qeydiyyata alındım. Onu da bildirim ki, güzəştli ev növbəsinə ilk olaraq mən yazıldım. Bu günə kimi Binəqədi İcra Hakimiyyəti məni süründürür. Müxtəlif bəhanələr gətirərək hüquqlarımı kobudcasına pozur. İcra hakimiyyətindən bildirilir ki, balansda ev yoxdur. Hətta təklif elədilər ki, torpaq verək. Mən də razılaşdım. Mənə Xocasən qəsəbəsində, dağın başında 2 sot torpaq vermək istəyirdilər. Lakin həmin torpaqda ev tikmələrini istədim. Razılaşmadılar. 6 sot topaq vermələrini istədim ki, 3 sotunu satıb həmin pula ev tikim. Bu təklif də icra nümayəndələrinə sərf eləmədi. Artıq Binəqədi rayonunda 3 icra başçısı dəyişib. Heç biri qanunla mənə düşən mənzili vermək istəmir. Son aylar icra başçısı Xaləddin İsgəndərova müraciətlərim olub. Hətta qəbulunda belə olmuşam. Lakin faydası olmayıb. Bir sözlə, icra nümayəndələrinin süründürməçiliyi ilə üzləşirəm".

**Qarabağ veteranı aidiyyəti instansiyalara çoxsaylı müraciət etdiyini, lakin bunun da fayda vermədiyini deyir:** "2002-ci ildə hüquqlarımın bərpası üçün Qarabağ Veteranları Birliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə, ombusdmana, Milli Məclisin İnsan Hüquqları Daimi Komissiyasının sədrinə, deputat Aqil Abbasa müraciət etdim. Lakin bütün bunlara baxmayaraq heç kim şikayətimlə maraqlanmadı. İndi ailə üzvlərimlə birgə kirayələrdə yaşayırıq. Bir Qarabağ veteranı ailəsini küçədə qoyan və onun hüquqlarını pozan Binəqədi Rayon İcra Hakimiyyətindən mənzilimin və ya torpaq sahəmin verilməsini tələb edirəm".

Məsələ ilə bağlı qarşı tərəfin mövqeyini öyrənmək üçün Binəqədi Rayon İcra Hakimiyyətinin mətbuat xidməti ilə dəfələrlə əlaqə saxlamağa çalışsaq da, zənglərimizə cavab verən olmadı. Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.

❑ Məğrur MƏRD

# Bakının qara(nlıq) günləri...

## Paytaxt sakinlərinin canı və malı təhlükədədir...

**Son günlər axşam saatlarında Bakıda küçələrin, yolların, parkların, binaların fasadlarının işıqlarının bütünlüklə söndürülməsi, insanların ən intensiv hərəkət etdiyi küçələrin qaranlığa qərq olması məsələsi mətbuatın gündəmindədir. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən atılan bu addımın məqsədi enerjiyə və dolayısı ilə bu quruma ayrılan büdcə vəsaitlərinə qənaət etməkdir. Qeyd edək ki, küçə və yolların işıqlandırılması BŞİH-in nəzdindəki Bakı Şəhər İşıqlandırma İdarəsinin səlahiyyətindədir.**



Məsələnin digər bir tərəfi odur ki, bu qurumun etdiyi qənaət metodu şəhər sakinlərinə baha başa gələ bilər. Qaranlıq küçələrdə cinayətlərin, qətl və oğurluq hallarının sayı arta bilər. Digər tərəfdən, təhlükəsizlik kameralarının işinin dayanması, eləcə də yolların qaranlıq olması bəzi güc strukturlarının, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin işinə də mane ola bilər. Zülmətə qərq olan yollarda yol hərəkəti qaydalarının pozulması, qəzaların sayının artması da istisna deyil.

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən politoloq Arzu Nağıyev belə bir təcrübənin dünyanın heç bir yerində olmadığını qeyd etdi:** "Küçələrin qaranlıq olması yol hərəkəti qaydalarının pozulmasına, eyni zamanda qəza hallarının sayının artmasına səbəb ola bilər. Bu məsələyə birmənalı yanaşmaq qeyri-mümkündür ki, əgər qənaət rejiminə keçirilirsə, bütün küçələrdə işıqlar sönə bilər. Dünyada belə bir praktika yoxdur. Qənaət üçün bir neçə cür işıqdan istifadə olunur. Müəyyən saatlarda daha zəif işıqlandırma ilə əvəz edilir. Müvəqqəti olaraq lampaların bir qismini söndürmək olar. Lakin bütünlüklə işıqların söndürülməsi praktikası heç yerdə yoxdur. Küçələrin işıqlandırılması ilə məşğul olan idarələrə dövlət büdcəsindən müəyyən qədər vəsait ödənilir ki, onlar işığı pulsuz versinlər. Bu, təhlükəsizlik məsələsi ilə birbaşa bağlıdır".

**Ekspert bildirdi ki, insanların sağlamlığına təhdid varsa, birinci bu amil nəzərə alınmalıdır:** "Əsas meyar Bakı sakinləri olmalıdır, o qaranlıq küçələrdən keçən vətəndaşlarımız olmalıdır. DİN və ya prokurorluq orqanlarının işinin çətinləşməsi artıq bu məsələnin dolayı təsirləridir. Əgər hansısa küçədə işıqlar söndürülürsə, bunun DTX-yə və ya DİN-ə nə ziyanı ola bilər? Söhbət təhlükəsizlik kameralarından gedirsə, onlar öz fəaliyyətini işıq olmasa da bərpa edə bilir. Onların bəziləri, yollardan yanıb-sönən işıqlar gündüz günəş batareyaları ilə enerjini yığır, gecələr işləməyə başlayır".

**Milli Təhlükəsizlik Nazirliyinin istefada olan polkovnik-leytenantı İlham İsmayıl isə Daxili İşlər Nazirliyinin qaranlıq küçələrdə nəzarəti gücləndirməsinin vacib olduğunu vurğuladı:** "Aydın məsələdir ki, bunun səbəbi qənaət rejiminə keçməkdir. Təxminən 10 il öncə də belə idi. İndi ən azından kameralar vasitəsilə mərkəzi küçələrə nəzarət var. Qaranlıqda bu məsələ bir qədər çətinləşəcək. Ancaq yəqin ki, DİN bunu nəzərə alaraq bəzi yerlərdə nəzarəti gücləndirə bilər. Bu da başqa bir məsələdir ki, əgər cinayət olacaqsa, onun işığa və ya qaranlığa o qədər də aidiyyəti yoxdur. İqtisadi vəziyyət gərginləşdikcə, təhlükəsizlik də o qədər aşağı düşür, oğurluq halları artır. Burada dövlətdən daha çox fərdin təhlükəsizliyindən söhbət gedir. Ölkənin vəziyyəti elədir ki, artıq Bakının çilçıraqlı küçələrinə əlvida deyirlər".

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxlamağa çalışsaq da zənglərimiz cavabsız qaldı.

Bir neçə gündür ki, Bakı Şəhər İşıqlandırma İdarəsinin rəisi Məhərrəm Babayevlə də əlaqə yaratmağa cəhd göstərsək də, zənglərimizə katibə tərəfindən hər dəfə bir bəhanə ilə cavab verilir və Məhərrəm Babayev mətbuata çıxmaqdan yayınır.

**Yazıda adı keçən tərəflərin mövqeyini dərc etməyə hazırıq.**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016



# Prezidentin Qarabağ çağırışının arxasındakı mətləblər

## Ekspertlərdən dəyərləndirmə və ilginc açıqlamalar; "Dağlıq Qarabağda başlanacaq müharibə Avropa İttifaqının sərhədində gedəcək"; amerikalı həmsədrdən Azərbaycan XİN-in iradına cavab gəldi: "İşğal altındakı ərazilər qaytarılmalıdır... "

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində ötən həftə boyunca da gərginlik davam etdi. İşğalçı ölkənin hərbi qüvvələrinin diversiya-təxribat hücumları nəticəsində ordumuzun kiçik çavuş rütbəli bir əsgəri şəhid olsa da, beynəlxalq aləmdən hər hansı reaksiya gəlmədi.**

Qeyd edək ki, Münhendə Ermənistanın XİN əməkdaşının Azərbaycanı ittiham etməsinin qarşılığında prezident İlham Əliyev tutarlı cavab verib və Ermənistanın qarşısındakı yeganə şərti açıqlayıb: **"İşğal dayandırılmalıdır. Regionda təhlükəsizlik istəyirsinizsə, işğalı dayandırın".**

Bu fikirlər əslində təkcə Ermənistana və havadarlarına deyil, beynəlxalq təşkilatlara da ünvanlanmış mesajdır. Bununla Bakı mövqeyində qəti olduğunu bəyan etmiş olur. Yəni həmsədrlər açıq şəkildə ermənilərin mövqeyindən çıxış etsələr də, Qarabağ separatçılarına "yaşıl işıq" yandırsalar da, Azərbaycan torpaqlarının işğalda qalması ilə razılaşmayacaq.

Yeri gəlmişkən, ötən həftə Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan Münhendə ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov, Ceyms Uorlik, Pyer Andrie və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kaspşiklə görüşüb. Ancaq Azərbaycan prezidentini müşayiət edən Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarovla analoji görüş keçirilmədi. Şübhəsiz ki, həmsədrlər AŞ PA-nın qış sessiyasında oynadıqları ermənipərəst mövqelərinə görə sərt təpki ilə qarşılandıqdan sonra rəsmi Bakı ilə münasibətləri yumşaltmaq istərdilər.

**Bu arada ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik "Amerikanın səsi"nə müsahibəsində "Azərbaycan hökuməti ATƏT-in Minsk Qrupu həmsədrlərinin AŞPA-ya Dağlıq Qarabağla bağlı qətnamə barədə çağırış etməsini kəskin tənqid edib. Həmsədrlərin belə çağırış etməsi hansı zərurətdən irəli gəlib" sualını cavablandıraraq deyib:** "Biz regional və beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsinin müzakirələrinə etiraz etmirik. Biz Azərbaycan və Ermənistanın bu məsələni istədikləri kimi qaldırmaq hüquqlarını dəstəkləyirik. Həmsədrlər vurğulayırlar ki, Minsk Qrupunun qəbul etdiyi danışıqlar formatı olaraq qalır. Biz ümid edirik ki, bu münaqişəni danışıqlar yolu ilə həll etmək üçün Ermənistan və Azərbaycan öz öhdəliklərinə sadiq qalaraq Minsk Qrupu ilə sıx əməkdaşlıq edəcəklər".

**Amerikalı həmsədr münaqişənin həlli elementlərinin müzakirələrini davam etmək üçün Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla hər zaman görüşməyə hazır olduqlarını da söyləyib.** "Münaqişənin uzunmüddətli həllinə nail olmaq üçün bizim danışıqlar beynəlxalq hüquq prinsiplərinə - BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və xüsusi olaraq - ərazi bütövlüyü, öz müqəddəratını təyinetmə və güc tətbiq etməmək prinsiplərinə əsaslanır. Münaqişənin hərtərəfli həll planının bir hissəsi olaraq Dağlıq Qarabağın statusunun müəyyənləşməsi də daxil olmaqla, işğal olunmuş ərazilər Azərbaycanın nəzarəti altına qaytarılmalıdır" - o vurğulayıb (report).

***

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında dövlət başçısının Münhen çıxışını yüksək qiymətləndirdi:** "Azərbaycan prezidenti cənab İlham Əliyevin Münhen konfransındakı çıxışı həm ermənilərə, həm də bu gün demək olar ki, tam şəkildə ermənilərin mənafeyini müdafiə edən, ermənilərin təcavüzünü dəstəkləyən ATƏT-in Minsk Qrupunun həmsədrlərinə bir mesaj idi. Yəni ilk öncə BMT-nin məlum qətnamələrinin icra edilməməsindən tutmuş, həmsədrlərin AŞ PA-nın məlum sessiyasından əvvəl verdikləri bəyanatlara qədər baş verənləri bir daha yada salsaq, görərik ki, xarici işlər naziri Elmar Məmmədyarovun həmsədrlərlə görüşməməsi düzgün addımdır. ATƏT-in Minsk Qrupunun tam tərkibdə yığıncağı bu gün gündəmdədir və yəqin ki, bu görüşdə həmsədrlərdən müvafiq sorğular olacaq və həmin görüşdə iştirak daha önəmlidir. Nalbəndyanın görüşünə gəldikdə isə bu, təbii bir haldır. Çünki istər həmsədrlər, istərsə də Nalbəndyanın status-kvonu saxlamaq və bu kimi məsələlər üst-üstə düşdüyündən onların müzakirə edəcəyi məsələlər var".

**A.Nağıyev Qərb ekspertlərinin Qarabağ müharibəsi ilə bağlı anonsunun arxasında dayanan mətləbləri də açıqladı:** "Bu bəyanatlar Rusiyanı daha irimiqyaslı əməliyyatlara cəlb etmək istəyidir. Belə olan halda onsuz da iqtisadi tənəzzülə uğrayan Rusiya daha çətin vəziyyət düşə bilər. Bu da Qərbin ən böyük istəyidir ki, iqtisadi narazılıqlar fonunda siyasi istəklərini həyata keçirsin. Fikir versək görərik ki, bir az əvvəl terrorla mübarizəni ön plana çəkən Rusiya artıq öz hərb maşınını ancaq Bəşər Əsədin iqtidarda qalmasına yönəldib və buna görə Türkiyəyə qarşı bütün variantlardan istifadə edir. Bu, Dağlıq Qarabağda və sərhəd bölgələrində gərginliyin artmasının bir səbəbidir. Xəzər və Qara dənizlərdə Rusiya hərbi təlimlər keçirir, güc nümayiş etdirir. Qərb də bundan istifadə edir, qeyd etdiyimiz kimi, Rusiyanı müharibəyə sürükləyir və bu yolla regionda baş verən münaqişələrin birbaşa təşəbbüskarı olduğunu göstərməyə çalışır. Təbii ki, bunun üçün Türkiyədən, yəni NATO üzvü olan dövlətdən də istifadə edilir. Bundan istifadə edən Ermənistan da havadarlarının hesabına münaqişənin daha da gərginləşməsinə çalışır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, İlham Əliyevin Münhen təhlükəsizlik konfransında iştirakı bir neçə səbəbdən vacib idi:** "Birincisi, iki ildir nə Davos İqtisadi Forumunda, nə də Münhendə təhlükəsizlik konfransında Ermənistan prezidenti iştirak edir. Bu da İlham Əliyevə Azərbaycanın haqlı mövqeyinin maneə görmədən beynəlxalq birliyə çatdırılmasına şərait yaradır. Çünki əgər Ermənistan prezidenti Serj Sərkisyan da bu tədbirlərdə iştirak edərdisə, yalan təbliğatına dövlət başçılarını, diplomatlar və ekspertləri inandırmağa çalışacaqdı. Kimsə inanmayacaqdı, ancaq inanan da olacaqdı. Ona görə də yalan təbliğatla qarşılaşmayan İlham Əliyev Azərbaycanın mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün zəruri imkan qazandı. Azərbaycanın iqtisadi və sosial həyatda ciddi çətinliklərlə üzləşməsinə baxmayaraq, həm Davos, həm də Münhendə Azərbaycanın iştirakı ilə enerji və tranzit layihələrinin təqdimatı keçirildi. Bu, o layihələrdir ki, Avropa və ABŞ da bunların qısa zamanda reallaşmasında maraqlıdırlar. İlham Əliyevin Münhen təhlükəsizlik konfransında iştirakını şərtləndirən ikinci vacib səbəb Qarabağ münaqişəsidir. Biz beynəlxalq aləmin ikili standartları ilə üzləşməmizə baxmayaraq, Qərblə daima müxtəlif səviyyələrdə birgə işləməliyik".



**E.Şahinoğlunun fikrincə, daim anlatmalıyıq ki, Azərbaycanın torpaqlarının işğalı faktının davamı yalnız bölgə üçün deyil, Avropa İttifaqı üçün də ciddi təhlükə yaradır:** "Təsadüfi deyil ki, Avropa İttifaqı məsələləri üzrə ixtisaslaşmış nüfuzlu Avropa Siyasəti Mərkəzinin Dağlıq Qarabağ münaqişəsinə dair yaydığı son geniş hesabatda Cənubi Qafqazı və bütövlüklə Azərbaycanı Avropanın cənub sərhədi kimi dəyərləndirib. Bu isə o deməkdir ki, Dağlıq Qarabağda başlanacaq müharibə Avropa İttifaqının sərhədində gedəcək. Ona görə də əgər Avropa İttifaqı Cənubi Qafqazda yeni müharibə istəmirsə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə maraqlanmalı, ATƏT-in Minsk Qrupu ilə məsləhətləşmələrə başlamalıdır. Bu mənada İlham Əliyevin Münhendəki çıxışlarının əsas qayəsini məhz bu faktor təşkil edirdi ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilmədən Cənubi Qafqazda sabitlik olmayacaq. Elə İlham Əliyevin Münhendə erməni diplomatın sualına verdiyi cavabda da bu fikir yer alırdı ki, "əgər sabitlik istəyirsinizsə, işğala son qoyun". Bu, İlham Əliyevin artıq neçənci dəfədir ki, Ermənistana və beynəlxalq aləmə mesajıdır. Başqa sözlə, bu, o deməkdir ki, işğala son qoyulmayana qədər Azərbaycan müharibə başlamayacağına dair kimsəyə təmin verməyəcək. İlham Əliyev Azərbaycanın haqq səsinin Avropa İttifaqında eşidilməsini və qəbul edilməsini istəyirsə, ölkəmizin Avronestə qayıtmasını da təmin etməlidir. Məncə, Avronesti tərk etmək rəsmi Bakının səhv qərarı idi. Bu qərarı yenidən gözdən keçirməyə ehtiyac var. Əlbəttə, bu qurum Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi rol oynamır. Ancaq əgər biz Azərbaycanı Avropa İttifaqı ilə birləşdirən körpülərin birindən imtina edirikse, Brüsselə ünvanladığımız "Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə dəstək verin" çağırışımıza qarşılıq almaya da bilərik. Ona görə də rəsmi Bakı qısa müddətdə Avronestə geri dönmək haqqında düşünməlidir. Avronestdə biz yoxuq, Ermənistan var. Meydanı könüllü surətdə niyə Ermənistana təhvil verməliyik?"

**Hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində bizim üçün maraq doğuran çoxsaylı görüşlər keçirildi:** "Bu tədbirlərdə Dağlıq Qarabağ, enerji, ikitərəfli və ATƏT çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu və mənim diqqətimi çəkən əsas nüanslardan biri Azərbaycan atalar sözündə deyilən zərbi-məsəl oldu: "Qara məni basınca, qoy qaranı mən basım". Minsk Qrupunun həmsədrləri ilə görüşən Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın yubanmadan və daha böyük ehtimalla məhz havadarları rolunda olan həmsədrlərin xeyir-duası ilə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar prosesinə maneələr törətdiyini dilinə gətirməsi oldu. Bu sarsaq erməni diplomatın ölkəmizin atəşkəs barədə üçtərəfli müqaviləni pozması, baş verən hadisələrin təhqiqatını aparmaq üçün mexanizmin yaradılmasından boyun qaçırması və danışıqları başqa formatlara keçirməyə çalışmasını qeyd etməsi açıq-aydın onu deməyə əsas verir ki, həmsədrlər onu yaxşıca təlimatlandırıblar. Azərbaycan tərəfinin onlarla növbəti mənasız danışıq raundundan imtina etməsi, görünür, həmsədrləri möhkəm qəzəbləndirib".

**Ü.Cəfərovun sözlərinə görə, Azərbaycan tərəfi bundan sonra artıq konkret addımlara keçməlidir:** "Yetər artıq! Biz bu beynəlxalq yalançı, işğalçının mənafelərini qoruyan Minsk Qrupu formatında 20 ildən artıq bir zaman kəsiyində müxtəlif hoqqabazlıqlarla, oyunlarla vaxt keçirməyə alışmış qurumların formal fəaliyyətinə şəriklik etdik. Cəbhədəki bu son gərginliyin də ən böyük səbəbkarları məhz Ermənistana havadarlıq edən ölkələrin gizli şəkildə verdikləri təlimat idi ki, guya Azərbaycan məcburiyyət qarşısında qalıb həmsədrlərlə görüşə razılıq versin. Görün erməni həyasızlığı hansı aşırı həddədir ki, Azərbaycan dəfələrlə status-kvonun belə qalmasına razı olmadığını bəyan etsə də, Ermənistan tərəfi rəsmi Bakını tənzimlənmə prosesini pozmaqda, status-kvonun saxlanmasına şərait yaratmaqda ittiham edir. Hələ üstəlik də, guya həyasızcasına bəyanat yayaraq Ermənistanın hər zaman bunun əleyhinə olmasını qeyd edirlər. Son bir neçə gündə Ermənistan tərəfindən diversiya-kəşfiyyat fəaliyyəti və atəşkəsin pozulması nəticəsində bir neçə hərbi qulluqçumuz şəhid olub. Nədənsə həmsədrlər adi bir mülki erməni vətəndaşına görə bərk narahatçılıq bildirdikləri halda, Azərbaycan hərbçiləri ilə bağlı ümumiyyətlə, səslərini çıxarmağı lazım bilmədilər. Bunu necə başa düşək? Bir sözlə, cəbhədə bundan sonra da məhz Ermənistan və havadarları tərəfindən təşkil olunmuş təxribat cəhdlərinin sayının artacağını düşünürəm. Ona görə də Müdafiə Nazirliyimiz bu məqamları xüsusi nəzarətdə saxlamalıdır".

YENİ MÜSAVAT
N 36 (6357) 16 fevral 2016

# Filmlərdəki bərbad tərcümələr, bayağı dublyajlar...

**Sabir Rüstəmxanlı:** "Tərcümə işi ilə məşğul olanlar bəzən öz dillərini belə yaxşı bilmir..."

**Şeyx Əbdül Mahmudbəyov:** "Analarımızı tərifləyəndə mama deyirik, söyəndə ana..."

**Bütün inkişaf etmiş ölkələrdə filmlər yerli dilə tərcümə olunaraq nümayiş etdirilir. Azərbaycanda da Mədəniyyət və Turizm Nazirliyinin qərarına görə 15 iyul 2011-ci il tarixdən etibarən ölkədə fəaliyyət göstərən kinoteatrlarda xarici filmlər Azərbaycan dilinə tərcümə edilərək (subtitrlərlə və ya dublyaj olunaraq) nümayiş etdirilir.**







Ancaq bu tərcümələrdə ciddi nöqsanlar var. Belə ki, subtitrlərdə Azərbaycan dilinin qaydaları pozulur, sözlər yanlış tərcümə edilir. "Metropark" Ticarət Mərkəzində yerləşən "Park Cinema"da türk filmi olan "Kardeşim benim" filminin subtitrində "mama qurban", "sağ ol kardeşim" sözünün tərcüməsi olaraq "atam, sağ ol" və bu kimi yanlış tərcümələrin şahidi olduq. Ümumiyyətlə, filmlərin subtitrlərində və ya dublyajında "mama", "papa" kimi sözlərdən tez-tez istifadə edildiyinin, ən pisi isə bu sözlərin Azərbaycan türkcəsində olan sözlər kimi izləyicilərə sırınmasının şahidi oluruq.

**"Park Cinema"da fikrini aldığımız bir neçə izləyici də tərcümələrin bərbad səviyyədə olmasından şikayətləndi. Türk filmi izlədiyini deyən Aytac Əliyeva adlı izləyici subtitrlə verilən tərcümənin çox gülünc olduğunu dedi:** "Filmin ağlamalı yerində belə, altdakı tərcüməni oxuyanda insanı gülmək tutur. Mən bir neçə filmdə də bunu görmüşəm. Rus sözlərindən istifadə edilir, cümlələr də elə qoşulur ki, insan orada nə demək istənildiyini anlamır".

**Digər izləyici Anar Quliyev filmlərin subtitr yerinə dublyajla verilməsinin daha yaxşı olacağını dedi:** "Gözü zəif olan insanlar o filmin altında yazılan tərcüməni oxuya bilmir. Ona görə də dublyaj olsa daha yaxşı olardı. Həm də düzgün tərcümə etsinlər. Süni quru sözlərlə yox".

**Maraqlıdır, dəfələrlə gündəmə gətirilən bu problem nə vaxtsa öz həllini tapa biləcəkmi? Sabiq deputat Sabir Rüstəmxanlı tərcümə işi ilə məşğul olan insanların bəzən öz dillərini kifayət qədər bilmədiyini dedi:** "Əgər filmin tərcüməsində "mama" sözü işlədilirsə, görünür ki, o filmin tərcüməsini elə "mama uşaqları" edib. Bunu tərcümə edənlər, görünür, məişətdə, evlərində rus dilində danışırlar. Amma filmlərin tərcüməsi kimi bir qazanc yeri olan kimi, bu işə birinci sahiblənirlər və öz dillərini bilməyə-bilməyə bu işlə məşğul olurlar. Halbuki iş peşəkarlıqdan və hər kəsin ümumi səviyyəsindən asılıdır. Bir çox hallarda tərcümə işi ilə çox təəssüf ki, rusdilli insanlar məşğul olur. Yaxud bunu edən adamlar tərcümə etdiyi dili bilir, amma öz dilini kifayət qədər bilmir. Bu cür hallar həddindən artıq çoxdur. Təkcə kinoların dublyajında və ya subtitrlərin yazılışında deyil, tərcümə işimizin bir çox sahələrində görünür. Mənə elə gəlir ki, Tərcümə Mərkəzinin yaranması Azərbaycanda tərcümə işində ciddi bir dönüş yaradıb. Tərcümə Mərkəzinin səlahiyyətləri daha da genişlənməlidir və bu məsələlərə onların təcrübəli kadrları cəlb olunmalıdır. Ən azı məsləhətçi kimi onlar bu işlərdə öz köməklərini göstərməlidirlər. Yalnız təcrübəli adamların köməyi ilə problemi aradan qaldırmaq olar. Çox təəssüf ki, danışmaqla bu problem həll olunmur".




**S.Rüstəmxanlı telestudiyalara aid qanunun həm də kinoteatrlara aid olduğunu xatırlatdı:** "Ölkəmizdə kifayət qədər televiziyalar var, bundan başqa, kinoteatrların sayı artacaq, yeni filmlər gətiriləcək . Qanunlarımıza görə, bu filmlər hökmən Azərbaycan dilində getməlidir. Mən "Nizami" kinoteatrına təsadüfən şeir axşamına getmişdim. Oradakı filmlərin yarıdan çoxunun rus dilində getdiyini gördüm. Bakıda kinofilmlər Azərbaycan dilində getməlidir. Bizim telestudiyalara aid olan qanun həm də kinoteatrlara aid olmalıdır. Rusdilli əhalini nəzərə alaraq bir film rus dilində gedə bilər. Amma yerdə qalan bütün filmlər tərcümə olunmalıdır. Bu, bir zərurət, ehtiyacdır. Başqa cür mümkün də deyil".

**Kinorejissor Şeyx Əbdül Mahmudbəyov da məsələyə sərt münasibət bildirdi:** "Bu gün analarımızı tərifləyəndə mama deyirik, söyüləndə isə anan deyib söyülür. Qədimdə türklər bir dil bilənə bir şəxsiyyət vəsiqəsi, iki dil bilənə iki şəxsiyyət vəsiqəsi və müəyyən üstünlüklər verirlərmiş. Biz 26 türkdilli tayfalar sözsüz ki, yüz illərin, zamanın axarında istər-istəməz müəyyən dərəcədə deformasiyaya uğramışıq. Yəni müəyyən sözlər dəyişilib, itib, sözlərimizin əvvəli, axırı məntiqi vurğular, şəkilçilər və sairə itib. Şəxsən mən bu işlə məşğul olan bir adam kimi osmanlı, anadolu türkcəsi ilə, o cümlədən türkmən, qaqauz, tatar qardaşlarımız sürətli danışanda fikri tutmağa çətinlik çəkirəm. Bəzən deyirlər ki, qəzəl ərəb, farslarındır. Belə deyil. Əgər belədirsə, niyə ərəb, fars bir qəzəl yaza bilmir?! Sadəcə olaraq, dünyada 3 dil - ərəb, fars və türk dili olub. Müəyyən fasilələrlə bu dillər hakimiyyətə gəlib və xalqın folklorunda, etnoqrafiyasında, şifahi ədəbiyyatında qalıb. Bu, bəzən də həddən artıq önə çıxıb və aktiv olub. O cümlədən bu 3 dil dünyanın həmişə gövdəsi olan və böyük mədəniyyət, poeziyalar, şərqilər yaradan bir dildir. Bu dillərdən birinə üstünlük verib o birini aşağılamaq düzgün deyil. Bu 3 dildə də mütləq qarışıqlar, qatqılar var. Müasir gənclərimiz bu klassik sözləri bu gün bilmirlər. Çünki tədris edilmir. Buna görə də fikir çaşqınlığı yaranır. Müasir gənclərimiz daha asan münasibət qursunlar, bir-birini daha asan başa düşsünlər deyə, müəyyən güzəştlər olmalıdır. Kinolarda mama söhbətinə gəlincə isə maraqlı bir nüansı qeyd etmək istərdim. Filmlərimizdə ancaq papa, mama deyirlər. O gün televiziyada bir verilişdə aktyor çox maraqlı bir fikir işlətdi. Dedi ki, çox qəribədir ki, bu gün analarımızı tərifləyəndə mama deyirik, söyəndə ana deyib söyürük. Bax budur bizim faciəmiz".

**Kinorejissor ləhcənin, məhəlli tipli sözlərin efirə, mətbuata gətirilməsinin yolverilməz olduğunu dedi:** "Azərbaycan türkcəsinin bu gün əlimizdə olan klassik danışıq üslubu var. Əgər mən hansısa obraz, xarakter, gülməli bir hadisəni təqlid edirəmsə, o zaman gülməli şivələrdən istifadə edə bilərəm. Amma bu, o demək deyil ki, biz bunu gətirək efirə, mətbuata dolduraq və hərə bir dildə danışsın. Bu yolverilməz bir haldır".

❑ **Günel MANAFLI**

# Xalqlar qlobal biznesin toruna niyə düşür?

"14 fevral, 8 mart kimi bayramların gündəmdə saxlanılmasında əsas məqsəd daha çox gəlir əldə etməkdir"

**Azərbaycanda 14 fevral - "Sevgililər günü", başqa bir adla "Valentin günü" ötən illərə nisbətdə daha kütləvi şəkildə qeyd edilməyə başlayıb. Təkcə sadə insanlar deyil, televiziyalar da, mətbuat da bu günü qabarıq şəkildə işıqlandırır, biznes müəssisələri, restoranlar həftələr öncədən "Sevgililər günü" proqramlarının reklamını edirlər. Bundan bir ay sonra isə bizi 8 Mart qadınlar bayramı gözləyir. Yenə eyni tələş, eyni hədiyyələr, eyni gözləntilər...**

Xatırladaq ki, bir ay öncə, 31 dekabrda da biz başqa bir xristian bayramı olan Yeni ili qeyd etmişdik.



Bayramların beləcə, aybaay ardıcıllıqla düzülüşü, hər ay insanların bir başqa bayramın təlaşına düşməsi və kütləvi şəkildə bazarlara, restoranlara axışması, hədiyyə malları biznesində milyonlarla manat pulların dövr etməsi sanki bu bayramların qlobal biznesin sadə insanlar üçün yaratdığı bir oyun olduğunu deməyə əsas verir. Hər il də insanlar apanılan təbliğata uyaraq, müəyyən xərclərindən kəsib hədiyyələşməyə məcbur olurlar. Kimisi bir aylıq maaşını bir dəstə gülə, kimisi də hər hansı bahalı ətirə, oyuncaq ayıya verir. Restoranlarda isə boş stol tapmaq mümkün olmur.

**İqtisadçı ekspert Vüqar Bayramov da bu bayramların qlobal biznesin əlində bir alət olduğunu vurğuladı:** "Təbii ki, həmin günlər bayram kimi yaranında bunun biznes tərəfi nəzərə alınmayıb. Lakin sonradan həmin bayramlar sadə vətəndaşlardan çox biznesin diqqətini cəlb edir. Bu cür bayram günlərinin gündəmdə saxlanılmasında əsas məqsəd daha çox gəlir əldə etməkdir. Bayramlarla bağlı bizim apardığımız monitorinqlər göstərir ki, biznes daha çox gəlir əldə etmək səbəbindən Azərbaycan bütün alternativi olan bayramları qeyd edir. Məsələn, Yeni il bayramının Azərbaycanın tarixi ilə bağlılığı yoxdur. Ancaq bu reklam edilir. Həm biznes, həm də xidmət sektoru çalışır ki, bu gündən istifadə etməklə gəlir əldə etsinlər. Bundan başqa, əgər bir sıra ölkələrdə "Valentin günü" qadağan edilibsə, Azərbaycan həm bu günü, həm də buna bənzər digər günləri qeyd edir. Təəssüf ki, vəziyyət çox acınacaqlıdır və hələ də Azərbaycan məktəblərinin bir qismində 23 fevral sovet ordusunun yarandığı gün kişilər bayramı kimi qeyd olunur və oğlan şagirdlərə hədiyyələr verilir".

**Ekspertin sözlərinə görə, vətəndaşlarımızın bu məsələlərə loyal yanaşması və informasiyanı aldığı kimi qəbul etməsi, onu özü üçün dəyərləndirməməsi Azərbaycanda belə günlərin bayram kimi qəbul edilməsinə, qeyd edilməsinə gətirib çıxarır:** "Beynəlxalq aləmdə də biznes və xidmət sektoru belə bayramların təbliğində maraqlıdırlar. Xüsusən də televiziyalarda bunun təbliği həyata keçirilir. Biznes çalışır ki, həmin bayramlar gündəmdə qalsın və qeyd edilsin. Çünki bu onların gəlirlərinin artmasını təmin edir".

**İqtisadçı ekspert Natiq Cəfərli də bildirdi ki, müəyyən bayramların yaranması və sonradan onların piarının aparılması, beynəlxalq mediada təbliği və insanların beyninə yeridilməsi yaxşı düşünülmüş bir biznes planın nəticəsidir:** "Təbii ki, burada milyonlarla dollar vəsaitin bayramlar vasitəsilə qazanılması əsas məsələdir. Ancaq bu, birtərəfli olaraq, biznes məsələsi deyil. İnsanların özündə də belə hisslər var ki, "Sevgililər günü"ndə və ya 8 Mart bayramında qadınlara hədiyyə alsınlar, bir-birilərini təbrik eləsinlər. Media vasitəsilə illərdir bunun piarı aparılır və insanların beyninə yeridilir. Bu da effektini verdi və artıq insanlar bu hədiyyələşməni özlərinə borc bildilər. Qlobal biznes də bu məsələdən öz gəlirləri üçün istifadə edir. Belə demək mümkünsə, bu məsələdə cəmiyyətlə biznes arasında sanki bir razılaşma mövcuddur. Reallıq odur ki, dünyada bu bayramlarda satılan hədiyyələrin pulu milyardlarla ölçülür".

❑ **Nərgiz LİFTİYEVA**